

Milli azadlıqdan şirin nemət yoxdur!

# Türkiyədən Azərbaycana ən xoş salamlar...



Bax səh. 2

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
8 fevral 2025-ci il, şənbə
№ 023 (6851)
Qiymәti 60 qəpik

## Rəcəb Tayyib Ərdoğan: Şəxsən öz adımdan və bütün türk xalqı adından qardaşım İlham Əliyevə xüsusi minnətdarlığımı bildirirəm





# 2025-ci il üzrə Yol Xəritəsi layihəsi hazırlanıb

Bax səh. 2




Bax səh. 5

# Media şəbəkəsi, QHT toru, xərclənən milyonlar...

## Biznesin maliyyə təminatı naminə

Prezident İlham Əliyevin imzaladığı müvafiq fərmana əsasən, "İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təmin edilməsi haqqında" və "İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə əlavə tədbirlər haqqında" qanunlara müvafiq dəyişikliklər edilib. Belə ki, ölkə sahibkarlarına 2018-ci il yanvarın 1-dən 2026-cı il dekabrın 31-nə qədər banklardan manatla aldığı kreditlərə hesablanmış faizlərə görə subsidiya veriləcək. İndiyə qədər subsidiyanın verilmə müddəti 2024-cü ilin sonuna qədər alınmış kreditləri əhatə edirdi. Bundan sonra həmin müddət daha 2 il müddətə alınmış kreditlərə də şamil olunacaq. Bundan başqa, biznes sektorunun kredit hesabatına əsasən, borcalanın kredit sifarişi tarixinə və yaxud zəmanətin verilməsi...

Bax səh. 3




## COP29-da qəbul olunan qərarlar BMT səviyyəsində təqdir edilir

Bu gün dünyada təbiətə vurulan zərərin, ekoloji problemlərin qarşısının alınması qlobal bir çağırışdır. Getdikcə daha təhlükəli hal alan bu təhdidlər təxirəsalınmaz tədbirlər görülməsini, ölkələrin və beynəlxalq təşkilatların koordinasiyalı fəaliyyət göstərməsini zərurətə çevirib. Azərbaycan da bu çağırışa qoşulan ölkələr sırasındadır. Azərbaycanda ətraf mühitin mühafizəsi, ekologiyanın qorunması xüsusi diqqət mərkəzindədir. Ötən dövr ərzində bu istiqamətdə ölkə rəhbəri tərəfindən dövlət proqramları təsdiq edilib, müvafiq fərman və sərəncamlar imzalanıb. Milli Məclis müvafiq qanunlar qəbul edib.

Görülən işlər nəticəsində...

Bax səh. 5




## Sülh və təhlükəsizlik naminə...

Azərbaycan dost və tərəfdaş ölkələrlə davamlı olaraq birgə hərbi təlimlər keçirir. İki qardaş dövlət olan Azərbaycanla Türkiyənin hərbi qüvvələrinin birgə hərbi təlimləri isə ənənə halını alıb. Buna nümunə kimi iki ölkənin "Mustafa Kamal Atatürk", "Anadolu Qartalı", "Sarsılmaz Qardaşlıq" adlı birgə hərbi təlimlərini göstərmək olar. Eləcə də Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlılarının "Üç qardaş" hərbi təlimləri də xüsusi vurğulanmalıdır.

Qeyd edək ki, sözügedən əməkdaşlıq çərçivəsində növbəti hərbi təlim baş tutub. Belə ki, Türkiyənin Qars səhərində "Qış təlimi-2025" birgə təlimində "Yüksək Səviyyəli Müşahidəçi Günü" keçirilib. Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən...

Bax səh. 7



## Ermənistanın ekoloji terror siyasəti...

Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı Azərbaycan ərazilərində törətdiyi ağır cinayətlər sırasında ekoloji cinayətlərin də miqyası çox böyükdür. Azərbaycan öz torpaqlarını işğaldan azad etdikdən sonra biz görürük ki, Ermənistan uzun illər işğal altında saxladığı torpaqlarımızda təbiətə qarşı da düşmən münasibət sərgiləyib. Ermənilərin törətdiyi terror nəticəsində regionun ekologiyası üçün ciddi təhlükələr yaranıb. Belə ki, həmin ərazilərdə bioloji müxtəlifliyə, flora və fauna növlərinə, xüsusi mühafizə olunan təbiət ərazilərinə ciddi zərər vurulub, ərazilər yandırılıb, su resursları çirkləndirilib, qiymətli ağac növləri ilə zəngin olan meşələr məhv edilib. Ümumilikdə, yeraltı və yerüstü sərvətlərin məqsədli şəkildə talan edilməsi nəticəsində bu...

Bax səh. 6



# Türkiyədən Azərbaycana ən xoş salamlar...

## Prezident Rəcəb Tayyib Ərdoğan: Şəxsən öz adımdan və bütün türk xalqı adından qardaşım İlham Əliyevə xüsusi minnətdarlığımı bildirirəm

Qardaş Türkiyə 6 fevral 2023-cü il tarixində sonradan "Əsrin faciəsi" adlandırılan dağıdıcı zəlzələnin şokunu yaşadı. Təbii fəlakətin miqyası kifayət qədər böyük olub. Dağıdıcı zəlzələdə 53 min 537 nəfər həyatını itirib, 107 min 213 nəfər isə müxtəlif bədən xəsarətləri alıb.

Bu günlərdə faciənin ikinci ildönümü ilə əlaqədar Türkiyənin Adıyaman vilayətində mərasim təşkil olunub. Tədbirdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dağıdıcı zəlzələlərin nəticələrinin aradan qaldırılmasına ölkəmizin töhfəsinə görə Azərbaycanın Ankaradakı səfiri Rəşad Məmmədova xatirə plaketi təqdim edib. Xatirə plaketinin üzərində "Əsrin fəlakəti fonunda göstərilən nümunəvi həmrəylik, dəstək və fədakarlıq yaddaşımızda əbədi olaraq qalacaq və ölkəmizin gələcəyinin qarantı olan yeni vətəndaş nəsilləri üçün ilham mənbəyinə çevriləcəkdir" sözləri əks olunub.

### "Bir yumruq", "Can Azərbaycan"

Ölkələrarası münasibətlərə təsir göstərən çoxsaylı amillər sadalamaq mümkündür. Azərbaycan və Türkiyənin getdikcə möhkəmlənən münasibətlərinə gəldikdə isə bunu həm dövlətlərin və şəxsən prezidentlərin qətiyyətli siyasi iradələri, həm də cəmiyyətlərimizin səmimi istəyi şərtəndirir. Hər iki ölkənin tarixi şəxsiyyətləri Türkiyə və Azərbaycan arasındakı münasibətlərlə bağlı artıq aforizmə çevrilən ifadələr işlədiblər. Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyev iki ölkə arasındakı münasibətləri "Bir millət, iki dövlət" fəlsəfəsi ilə ifadə edib. Böyük Atatürk isə deyirdi: "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir".

Bu gün böyük şəxsiyyətlərin ruhu şaddır. Çünki onların istəkləri, arzuları yerinə yetirilir. Eyni zamanda, Azərbaycanın və Türkiyənin hazırkı liderləri də sarsılmaz dostluğumuza aid böyük məna yükü olan ifadələr işlədiblər. Bir-birinə səmimiyyətlə "əziz qardaşım" deyə xitab edən Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan dəfələrlə bildiriblər ki, onlar Türkiyədə və yaxud Azərbaycanda olarkən hər iki məkanda özlərini doğma evlərindəki kimi hiss edirlər. Dövlətimizin başçısı müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin fikirlərini davam etdirərək iki qardaş ölkə arasındakı münasibətləri "Bir yumruq" kimi səciyyələndirib. Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan da ölkəmizlə bağlı danışanda bir qayda olaraq "Can Azərbaycan" ifadəsini işlədir. "Bir yumruq" və "Can Azərbaycan" ifadələri hər iki dövlət başçısının qəlbinin dərinliklərindən gəlir və xalqlarımızın, cəmiyyətlərimizin münasibətləriini ifadə edir.

Tarixi şəxsiyyətlərin, bugünkü dövlət başçılarının Azərbaycan-Türkiyə münasibətləri ilə bağlı belə dərin məna yükünə malik olan fikirlər ifadə etmələri təsadüfi deyil. Azərbaycan və Türkiyənin yeni bağlarla möhkəmlənən qardaşlığı tarixdən gələn ənənələrlə, eyni milli-mənəvi dəyərlərə əsaslanır. Yaranan gözəl ənənəni də xatırlatmaq yerinə düşər. Qardaş ölkələrdə keçirilən prezident seçkilərindən sonra xalqın etimadını qazanan liderlər ilk səfərlərini Türkiyəyə və yaxud Azərbaycana edirlər. Eyni zamanda, Türkiyədə və Azərbaycanda baş tutan ən mötəbər tədbirlərdə adətən İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan birlikdə iştirak edirlər. Bu o anlama gəlir ki, hər iki ölkə bir-birinin uğurunu özününkü sanır və buna sevinir.



### Çətin günlərin dostları

Rəcəb Tayyib Ərdoğan olmaqla Türkiyənin əksər yüksəksəviyyəli rəsmiləri Azərbaycanın yanında olduğunu bildirən bəyanatlarla çıxış etdilər. Türkiyənin bu mənəvi-siyasi dəstəyi Azərbaycana güc verdi. Nəticədə, Silahlı Qüvvələrimiz 44 günlük müharibədə şanlı Qələbə qazanaraq respublikamızın ərazi bütövlüyünü təmin etdi. Postmüharibə mərhələsində də qardaş Türkiyə Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə start verdiyi genişmiqyaslı bərpa işlərində yaxından iştirak edir.

Eyni zamanda. Azərbaycanın da Türkiyəyə münasibətdə həmişə vəfa borcuna sadiq qaldığına aid çoxlu misallar sadalamaq mümkündür. İki il bundan əvvəl qardaş Türkiyədə baş verən faciəni də Azərbaycan öz kədəri kimi qəbul edib. Faciə xəbəri alınandan dərhal sonra - fevralın 6-da Prezident İlham Əliyev Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı məktubu ünvanlayaraq bu ağır məqamda ölkəmizin hər cür yardım göstərməyə hazır olduğunu bildirib.

Həmçinin Azərbaycan və Türkiyə çətin günlərin dostlarıdırlar. Qardaş ölkə artıq tarixdə qalan Qarabağ münaqişəsinin davam etdiyi üç onillik ərzində həmişə Azərbaycana dəstək verirdi. Biz Türkiyənin qətiyyətli dəstəyini 44 günlük Vətən müharibəsi zamanı bir daha gördük. Müharibənin ilk günlərindən başda qardaş ölkənin Prezidenti

### Azərbaycanın nümunəvi həmrəyliyi

Baş vermiş dağıdıcı zəlzələnin nəticələrinin aradan qaldırılmasında respublikamız nümunəvi həmrəylik göstərib. Azərbaycan yardıma birinci gələn və fəlakət bölgəsini son tərk edən ölkə olub. Zəlzələnin ilk günü - fevralın 6-da Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Fövqəladə Hallar Nazirliyinin 420 nəfərdən ibarət çevik xilasetmə qüvvələri Türkiyəyə yola düşüb. Fevralın 7-də ilkin olaraq mobil səhra hospitalı və 41 nəfərdən ibarət peşəkar tibbi və qeyri-tibbi heyət Türkiyəyə göndərilib. Daha sonra isə növbəti təyyarə ilə dağıntılardan ziyan çəkmiş insanların yerləşdirilməsi üçün çadırlar, ədyal və qızdırıcılar, habelə mobil səhra hospitalı üçün 3 ədəd konteyner göndərilib. Fevralın 8-də Fövqəladə Hallar Nazirliyinin daha 227 nəfərdən ibarət çevik xilasetmə qüvvələri qardaş ölkəyə yola düşüb. Dövlət xətti ilə texniki dəstək və humanitar yardımlar sonrakı günlərdə də ardıcıl şəkildə davam etdirlib. Bundan başqa, birinci xanım Mehriban Əliyevanın göstərişi ilə Heydər Əliyev Fondu Türkiyənin zəlzələ bölgəsinə humanitar yardımlar yola salıb.

Kahramanmaraşda "Azərbaycan" məhəlləsinin yaradılması ölkəmizin Türkiyəyə qardaşlıq dəstəyinin daha bir nümunəsidir. Layihə 100 milyon dollarlıq tikinti işlərini əhatə edir. Kahramanmaraş vilayətində inşa olunan "Azərbaycan" yaşayış məhəlləsinin ümumi sahəsi 32 hektar təşkil edir. Layihəyə əsasən məhəllə yaşayış binaları, ibtidai məktəb və uşaq bağçası, mədəniyyət mərkəzindən ibarətdir. Məhəllədə 71 yaşayış binasını inşası layihələndirilib.





### Qardaşlıq dəstəyi yüksək qiymətləndirilir

Azərbaycanın qardaşlıq dəstəyi Türkiyə dövləti və cəmiyyəti tərəfindən yüksək qiymətləndirilib. Rəcəb Tayyib Ərdoğan İlham Əliyevlə telefon danışığında hərtərəfli dəstəyə görə Azərbaycana təşəkkürünü bildirib. "Biz necə Qarabağ müharibəsində qardaşlarımızın yanında olduqsa, Türkiyədəki fəlakətdə də İlham qardaşım bütün komandası ilə bizim yanımızda yer aldı", - deyə R.T.Ərdoğan vurğulayıb.

Azərbaycan Türkiyəyə köməyə ilk gələn və zəlzələ bölgəsini son tərk edən ölkədir. Eyni zamanda, faciənin ikinci ildönümü ilə əlaqədar Türkiyənin Adıyaman vilayətində təşkil olunan mərasimdə Azərbaycanın Ankaradakı səfiri Türkiyə Prezidenti tərəfindən mükafatlandırılanlar siyahısında birinci olub.

Türkiyə Prezidentinin "İlk xatirə plaketi qardaş Azərbaycana təqdim edilir! Xahiş edirəm qardaşım İlham Əliyevə ən xoş salamlarımı yetirin" sözləri tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb. Ərdoğan əlavə edib: "Şəxsən öz adımdan və bütün türk xalqı adından Ona xüsusi minnətdarlığımı bildirirəm".

*Mübariz ABDULLAYEV*

# 2025-ci il üzrə Yol Xəritəsi layihəsi hazırlanıb

## Sənəd "Biznesə daxilolma" üzrə prioritetləri əks etdirir




Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Biznesə daxilolma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2025-ci il üzrə Yol Xəritəsinin layihəsi hazırlanıb. Sənəd Dünya Bankının ənənəvi "Doing Business" hesabatının əvəzində daha təkmil və yeni meyarlara əsaslanan "Business Ready" (B-Ready) tövsiyələrinə əsasən hazırlanıb. Qeyd edək ki, "Business Ready" hesabatı dünya ölkələrinin, o cümlədən Azərbaycanın biznes sektorunda aparılan yeni islahatları və fərqli yanaşmaları özündə əks etdirir. Vergi, gömrük, ticarət, maliyyə, biznes mühiti və s. indikatorlar üzrə qiymətləndirmələr əsasında hazırlanan bu hesabat əsasında dünya ölkələrinin biznes mühiti barədə rəy veriləcək və həmin ölkələrin beynəlxalq biznes mövqeyi müəyyənləşəcək.

**İslahatçı ölkə statusunda...**

Azərbaycan neçə illərdir ki, Dünya Bankı ilə əməkdaşlıq çərçivəsində biznes sahəsində islahatları davam etdirir, DB-nin təklif və tövsiyələri əsasında biznes mühitinin yaxşılaşdırılmasına təsir edən sahələr üzrə qabaqcıl təcrübələri tətbiq edir. Bu islahatların mühüm nəticələrindən biri kimi, Azərbaycan "Doing Business" hesabatlarında son illərdə ən yaxşı islahatçı ölkələr sırasında yer alıb. Ölkəmiz "Biznesə başlama", "Mülkiyyətin qeydiyyatı", "İnvestorların hüquqlarının müdafiəsi", "Vergilərin ödənişi" indeksləri üzrə ən mütərəqqi islahatlar həyata keçirib. 2018-ci ildən sonra vergi islahatları hesabatda Azərbaycanın bir neçə indeks üzrə irəliləməsində xüsusi rol oynayıb. Belə ki, "Doing Business 2020" hesabatında birbaşa vergi məsələləri ilə bağlı olan "Biznesə başlama" və "Vergilərin ödənişi" indeksləri üzrə Azərbaycan ilk 10 ölkə qrupunda yer alıb. Respublikamız "Biznesə başlama" üzrə dünya sıralamasında 9-cu yerdə, "Vergilərin ödənilməsi" indikatoru üzrə 28-ci yerdə qərarlaşıb.

**"Doing Business"i əvəz edən "Business Ready"**

Dünya Bankı biznes qiymətləndirməsini tamamilə yeni meyarlar və daha dərin alt-indekslər üzrə həyata keçirdiyindən Azərbaycanın da üzərinə bir sıra vəzifələr düşür. "Doing Business"i əvəz edəcək "Business Ready" hesabatı investisiya və biznes mühitinin qiymətləndirilməsinə daha şəffaf və balanslaşdırılmış yanaşmanı təmin etməkdədir. Yeni hesabat biznesə başlamaq üçün əsas institusional amilləri, vergi yükü və vergi dərəcələri, biznesin fəaliyyətində vergiqoymanın təsirləri, kommunal xidmətlər, əmək münasibətləri, maliyyə xidmətləri, beynəlxalq ticarət, bazar rəqabəti, mübahisələrin həlli kimi əsas alt-indekslər ölçüləcək. Bu reallıqlar nəzərə alınaraq müasir çağırışlar fonunda ötən dövr ərzində "Əlverişli biznes mühiti" adlı yeni layihə çərçivəsində islahatları və iqtisad təşəbbüsləri davam etdirilib.

"Biznesə daxilolma" adlı işçi qrupu tərəfindən biznesin qeydiyyatının bütün sahələrdə daha da asanlaşdırılması, xüsusilə də xarici hüquqi şəxslərin ölkəmizdə qeydiyyatdan keçirilməsi proseslərinin səmərəliliyinin təmin edilməsi, paralel olaraq onların təhlükəsizliyinin təmin edilməsi, biznes sektorunun sosial maraqlarının qorunması, kommunal xidmətlər, işçi qüvvəsi, biznes mübahisələri və s. sahələrdə sadələşdirilmiş prosedurların hazırlanması nəzərdə tutulur. Həmçinin müəssisələrin fəaliyyətinin çevikliyinin təmin olunması və sosial maraqlarının qorunması, xarici mənşəli beynəlxalq sənədlərin informasiya sistemlərində elektron rəsmiləşdirilməsinin asanlaşdırılması və "Elektron notariat" informasiya sisteminin tətbiqi, digər elektron infrastrukturların çevikliyinin artırılması islahat təşəbbüsləri sırasında yer alır.

**"Biznesə daxilolma" üzrə görülmüş işlər...**

Dövlət Vergi Xidmətinin məlumatına görə, "Biznesə daxilolma" işçi qrupunun təşəbbüsü ilə "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda, Əmək, Mülki və İnzibati Xətalar məcəllələrində dəyişikliklər edilib. Qanunvericilikdə edilmiş yeniliklərə əsasən, yerli və xarici investisiyalı MMC-lərin elektron dövlət qeydiyyatı prosedurları eyniləşdirilib. Yenilik ölkədə xarici subyektlər üçün elektron qeydiyyat xidmətini tamamilə əlçatan etməklə biznesə başlama prosesini asanlaşdırıb. Bu sahədə həyata keçirilmiş islahatlar çərçivəsində kommersiya hüquqi şəxsin onlayn qeydiyyatı zamanı "SİMA" rəqəmsal imza tətbiq olunub, qeydiyyat prosesində sanksiya tətbiq edilməli olan şəxslərin nəzərə alınması və kommersiya hüquqi şəxsin rəhbərinin



səlahiyyət müddəti bitdikdə elektron kabinetdən istifadəsinin məhdudlaşdırılması kimi tədbirlər görülüb.

Eyni zamanda, rübdə bir dəfə məlumat dəyişikliyinin qeydiyyata alınması üçün müraciətlərin zəruriliyinə dair informasiya xarakterli bildirişin kommersiya qurumlarının elektron kabinetinə göndərilməsi xidməti aktivləşdirilib. Həmçinin, lisenziya və ya icazə tələb edilən fəaliyyət növləri seçildikdə, kommersiya hüquqi şəxslərin elektron dövlət qeydiyyatı prosesi başa çatdıqdan sonra "Lisenziyalar və icazələr" portalına keçid imkanının yaradılması da təmin olunub.

Bütün bu meyarlar və digər indikatorlar üzrə görülmüş işlər DB-nin hazırlayacağı "Business Ready" hesabatında Azərbaycanın islahatçı ölkələr qrupunda qalmasına xidmət edir.

*ELBRUS*

# Biznesin maliyyə təminatı naminə

## Sahibkarlara verilən kreditlər üzrə subsidiya müddəti artırılıb

Prezident İlham Əliyevin imzaladığı müvafiq fərmana əsasən, “İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təmin edilməsi haqqında” və “İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə əlavə tədbirlər haqqında” qanunlara müvafiq dəyişikliklər edilib. Belə ki, ölkə sahibkarlarına 2018-ci il yanvarın 1-dən 2026-cı il dekabrın 31-nə qədər banklardan manatla aldığı kreditlərə hesablanmış faizlərə görə subsidiya veriləcək. İndiyə qədər subsidiyanın verilmə müddəti 2024-cü ilin sonuna qədər alınmış kreditləri əhatə edirdi. Bundan sonra həmin müddət daha 2 il müddətə alınmış kreditlərə də şamil olunacaq. Bundan başqa, biznes sektorunun kredit hesabatına əsasən, borcalanın kredit sifarişi tarixinə və yaxud zəmanətin verilməsi tarixinə kredit öhdəlikləri üzrə 30 gündən artıq gecikməsi olduqda və yaxud son bir il ərzində qeyri-işlək kredit statusu almış kredit borcu olduqda onun öhdəliklərinə zəmanət verilməyəcək. Əvvəlki qaydalara həmin müddət 60 günə bərabər idi.

## Kreditlərin kiçik və orta biznes üçün faydaları

Qeyd edək ki, dövlət zəmanəti ilə verilən ipoteka kreditlərinin əsas məqsədi biznesin maliyyə təminatını yaxşılaşdırmaqdır. Belə ki, iqtisadiyyatın tarazlı və dayanıqlı inkişafına nail olmaq, maliyyə sahəsində risklərin bölüşdürülməsinə əsaslanan kreditləşdirmə sistemini formalaşdırmaq və biznesin kredit resurslarına çıxışını genişləndirmək məqsədilə 2018-ci ildən etibarən yeni maliyyə zəmanəti mexanizmi yaradılıb. Həmin mexanizm çərçivəsində sahibkarların investisiya layihələrinin güzəştli şərtlərlə maliyyələşdirilməsində zəmanət hüquqları İpoteka və Kredit Zəmanət Fonduna (İKZF) həvalə edilib. Fond sahibkarlıq subyektlərinə dövlət tərəfindən zəmanət və subsidiyaların verilməsində tənzimləyici rol oynayaraq kreditlər üzrə hesablanmış faizlərin bir hissəsini subsidiyalaşdırır. Biznes üçün yeni maliyyə dəstəyi aləti hesab edilən bu mexanizmin tətbiqi sayəsində sahibkarlıq subyektlərinin daha inamlı və etibarlı şəkildə maliyyələşdirilməsi təmin edilib.

2025-ci il yanvarın 1-ə qədər müvəkkil banklar tərəfindən İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) zəmanəti ilə sahibkarlara güzəştli şərtlərlə 549,5 milyon manat kredit verilib. Sahibkarların maliyyə resurslarına çıxış imkanlarının artırılması və ödəniş yükünün azaldılması məqsədilə dövlət büdcəsindən ayrılmış vəsaitlər hesabına fond tərəfindən 2018-2024-cü illərdə sahibkarlıq kreditlərinə hesablanmış faizlərə görə 47,4 milyon manat məbləğində subsidiya verilib.

Zəmanət verilmiş kreditlər üzrə banklar tərəfindən müəyyənləşən orta faiz dərəcəsi 14,4 faiz olduğu halda, subsidiya hesabına borcalanlar tərəfindən 6,2 faiz həcmində faiz ödənilib.

Bu mexanizm çərçivəsində indiyədək zəmanət verilmiş kreditlərin orta müddəti 30 ay, İKZF tərəfindən sahibkarlıq kreditləri üzrə hesablanmış faizlərin bir hissəsinə subsidiyanın verilməsi hesabına sahibkarların ödəyəcəyi kreditlər üzrə faktiki faiz dərəcəsi 6 faiz, bir sahibkara ayrılan kreditin məbləği isə 30 min manatdan 5 milyon manatadək təşkil edib.

## Dəstək sayəsində 6500 yeni iş yeri yaradılacaq

Zəmanətli kreditlərin yönəldildiyi əsas sahə sənaye məhsullarının istehsalı və emalı, kənd təsərrüfatı və qida sənayesidir. Digər əsas sahələr isə tikinti, turizm və infrastrukturun inkişaf etdirilməsi ilə bağlı sahələr, maşın və avadanlıq istehsalı, ticarət və xidmət sektorlarıdır. Biznesə kredit zəmanətinin verilməsi sahibkarlığın maliyyələşdirilməsinə, ölkə iqtisadiyyatının inkişafına, yeni iş yerlərinin açılmasına, sahibkarlıq sahələrinin genişlənməsinə və dövlət büdcəsinə vergi daxilolmalarının artmasına səbəb olur. Zəmanət və faiz subsidiyası hesabına sahibkarlara ayrılan kreditlər vasitəsilə maliyyələşən layihələrdə 6500 yeni iş yerinin yaradılması nəzərdə tutulub.

Hazırda fond 17 müvəkkil təşkilatı vasitəsilə sahibkarların manatla aldıqları kreditlər üzrə zəmanətlərin və kredit öhdəlikləri üzrə subsidiyaların verilməsini həyata keçirir.




## Kredit zəmanətinin kəmiyyət və keyfiyyəti yaxşılaşdırılacaq

Ümumilikdə, biznesin maliyyə əlçatanlığının təmin edilməsi məqsədilə dövlətin güzəşt siyasətinin əsas məqsədi qeyri-neft sənaye sahələrinin inkişafı, kənd təsərrüfatı sahəsinin inkişafı üzrə istehsal yönümlü və logistik xidmət layihələrinin dəstəklənməsi, anbar komplekslərinin qurulması, turizmin inkişafında dövlətin dəstəkləyici rolunun artırılması, balıqçılıq və akvakultura təsərrüfatlarının yaradılması, “yaşıl”, rəqəmsal inkişaf və innovasiya yönümlü sahələrə maliyyə qayğısının göstərilməsindən ibarətdir.

Ölkədə formalaşmış kredit zəmanət mexanizminin təhlili göstərir ki, mexanizm kiçik və orta biznes sahəsində maliyyələşdirilməni asanlaşdırır, bank və digər kredit resurslarından fəal istifadə etməyə imkan yaradır və kredit risklərinin azaldılmasına səbəb olur.

Bu baxımdan fondla sahibkarlar arasında maliyyə vasitəçiliyinin daha da yaxşılaşdırılması üçün yeni inkişaf konsepsiyası hazırlanıb. Qarşıdakı strateji dövr ərzində kredit mexanizminin həm kəmiyyət, həm də keyfiyyət baxımından yaxşılaşdırılması, resurs əhatəliliyinin və təqdim edilən kredit çeşidlərinin artırılması hədəf kimi müəyyən edilib.

## Fondun kredit portfeli yüksəlib

Qeyd edək ki, dövlət başçısının bir müddət əvvəl imzaladığı müvafiq fərmana əsasən, İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsində də dəyişikliklər edilib. Fondun nizamnamə kapitalı 87,7 milyon manat artırılaraq 1 milyard 68 milyona manata çatdırılıb. Beləliklə, dövlət büdcəsindən güzəştli ipoteka kreditlərinin maliyyələşdirilməsi üçün əlavə 87 milyon manatın ayrılması mümkün olacaq.

Nizamnamə kapitalının artırılması biznesin maliyyə ehtiyaclarının ödənilməsində əlavə olaraq subsidiya təminatının da yaxşılaşmasına səbəb olacaq.

***E.CƏFƏRLİ***

# Sülhə yaxınlaşırıq...

## Bölgə yeni inkişaf mərhələsinin astanasındadır

Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması Cənubi Qafqazın həyatında yeni - sabit və inkişafa yönəlik dövrün başlama perspektivini formalaşdırır. Özünün məntiqi nəticəsinə yaxınlaşan proses bu gün yeni iqtisadi-siyasi nizamda daha vacib elementləri ilə seçilir. Cənubi Qafqazın stabil və sabit məkan kimi şöhrət qazanması, tanınması, qlobal layihələrin bizim coğrafiyada təşəkkül tapması üçün sülh həm də bir əsasa çevrilir. Azərbaycanda yürüdülən dövlət siyasəti və bu siyasətin əsas prioritet istiqamətləri Cənubi Qafqaz üçün inkişaf tempi perspektivi vəd edir. Bəli, sülhün imzalanmasına bir addım qalmış mənzərə təxminən bu formadadır - Azərbaycan dünyanın yeni iqtisadi münasibətlər sistemində özünəməxsus yerə malik olan Cənubi Qafqaz geoiqtisadi məkanını inşa edir, bu yolda ortaya çıxan maneələri aradan qaldırmaq üçün bütün diplomatik, iqtisadi və siyasi rıçaqlarından istifadə edir. Verilən bəyanatlar, səsləndirilən fikirlər bu prioritetin nə qədər ciddi olması ilə yanaşı, uğur qazanma ehtimalının da böyüklüyünü ortaya qoyur.

Ermənistanın üzərinə düşən missiya isə Azərbaycanın sülh təşəbbüslərinə səmimi şəkildə cavab verməkdir. İrəvan anlamalıdır ki, sülh onlar üçün ən real çıxış yolu, inkişaf üçün fürsətdir.



## İrəli sürülən şərtlər...

Paralel olaraq Ermənistan sülh fikirlərində səmimidirsə, Azərbaycanın irəli sürdüyü şərtləri qəbul etməlidir - sülh üçün əsas amillər isə hələ də açıq qalmaqdadır. Sülhün bərqərar olması üçün zəmini formalaşdıracaq iki şərtdən biri və birincisi Ermənistanın manipulyasiyalardan əl çəkərək qeyri-konstruktiv davranışlarına son qoymasıdır. Azərbaycanın humanist və beynəlxalq hüquqa söykənən mövqeyinin qarşılığında rəsmi İrəvanın bir sıra məsələlərdə məqsədli şəkildə ləngiməsi prosesin effektivliyini azaldan amil kimi çıxış edir. İlk növbədə Ermənistan əsassız iddialarını unutmalı, Azərbaycanın beynəlxalq aləm tərəfindən qəbul edilən sərhədlərinin toxunulmazlığını tanımaqla yanaşı, qondarma ərazi iddialarından rəsmən əl çəkdiyini ortaya qoymalıdır. Sülh üçün ilkin və əsaslı şərt məhz budur - bunun üçün isə Ermənistan konstitusiyasında dəyişikliklərin edilməlidir.

Digər məqam isə, vaxtilə “münaqişə”nin tənzimlənməsi üçün yaradılmış və artıq heç bir işə yaramayan ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı məsələnin İrəvan tərəfindən dəstəklənməsidir. Artıq “Qarabağ münaqişəsi” adlı bir mövhum mövcud olmadığı üçün, belə bir “vasitəçi mexanizmə” də ehtiyac qalmır. Azərbaycan ilə Ermənistan arasındakı münasibətlər isə qlobal gündəliyi maraqlandıran bir məsələ deyil, ikitərəfli kontekstdə həll oluna bir məsələdir - nəticə etibarı ilə, ATƏT-in Minsk qrupunun mövcudluğuna real olaraq ehtiyac duyulmur.

## Ermənistandan növbəti sülh açıqlaması...

Yeri gəlmişkən, Ermənistan xarici işlər nazirinin müavini Paruyr Ovannisyan isə deyib ki, 2025-ci ildə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi imzalana bilər: “İl ərzində sülh müqaviləsinin imzalanmasını mümkün hesab edirik, buna görə də səylərimizi davam etdiririk. Son zamanlar həm baş nazir, həm də xarici işlər naziri bu proseslərə toxunub. Burada bircə onu təsdiq edə bilərəm ki, həqiqətən də sülh sazişinin yekunlaşdırılmasına çox yaxınıq”. Ovannisyan həmçinin qeyd edib ki, delimitasiya prosesinin irəli aparılması üçün də müsbət dinamika var: “Kommunikasiyaların (nəqliyyat yollarının) açılması ilə bağlı yanaşmalarımız da konstruktivdir, bunlar sabit sülhə nail olmaq məqsədi daşıyır”.

Təbii ki, Ermənistanın siyasi rəhbərliyindən bu kimi açıqlamaların çox şahidi olmuşuq - indiki məqamda, bu tip bəyanatlar daha çox manipulyativ xarakter daşıyır. Çünki sülh haqqında danışan bir ölkənin aktiv silahlanması birmənalı qarşılana bilməz. Fransanın əli ilə silahlandırılan Ermənistan bölgədə stabilliyə deyil, daha çox qeyri-stabilliyə yol açır. Bu isə gələcək üçün mühüm təhlükələrdən xəbər verir. Ən azından, bölgədə davamlı sülhün formalaşdırılmaması, əməkdaşlıq müstəvisinin yaradılmaması regionla bağlı iqtisadi layihələrin icrasını gecikdirir.



## Kommunikasiyaların işə düşməsi...

Ovannisyanın kommunikasiyaların açılması ilə bağlı Ermənistanın yanaşmalarının konstruktiv olması ilə bağlı fikrinə gəldikdə isə, İrəvan Zəngəzur dəhlizi ilə bağlı üzərinə götürdüyü öhdəliyə riayət edəcəyi təqdirdə daha yüksək iqtisadi imkanlar əldə edəcək. Vurğulayaq ki, dəhlizin fəaliyyətə başlaması perspektivində regionun tranzit imkanları daha da genişlənəcək. Son illərdə Azərbaycan Avrasiyanın yeni nəqliyyat xəritəsini formalaşdırıb və hazırda bu geniş coğrafiyanın bütün əsas yolları məhz ölkəmizdə kəsişir. Zəngəzur dəhlizi bu bağlantıda yeni və çox mühüm halqa təşkil edəcək. Dəhliz boyunca yaradılacaq dəmir və avtomobil yolları məhz ölkəmizin ərazisində Şərq-Qərb və Şimal-Cənub marşrutlarına inteqrasiya ediləcək. Azərbaycanın Xəzərdə qurduğu ən böyük limanın, həmçinin işğaldan azad edilmiş ərazilərdə inşa olunan 3 beynəlxalq səviyyəli aeroportun yaradacağı imkanları da nəzərə alsaq, belə bir qənaət ifadə edə bilərik: Zəngəzur dəhlizi beynəlxalq səviyyədə daşımalar üçün ən cəlbedici marşrutlardan birinə çevriləcək və respublikamız perspektivdə etibarlı tranzit ölkə kimi bundan böyük həcmdə gəlirlər əldə edəcək.



Eyni zamanda, Zəngəzur dəhlizinin yaradılması digər region dövlətləri, xüsusilə Ermənistan üçün olduqca vacibdir. Şərq-Qərb və Şimal-Cənub magistral xəttinin qovşağında yerləşən Azərbaycanın yaratdığı imkanlarla Ermənistan da özünün iqtisadi imkanlarını inkişaf etdirə biləcək.

***P.İSMAYILOV***

# Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev yeni vəzifəyə təyin olunmuş maliyyə nazirini kollektivə təqdim edib



Fevralın 7-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyev yeni vəzifəyə təyin olunmuş maliyyə naziri Sahil Babayevi kollektivə təqdim edib.

AZƏRTAC xəbər verir ki, təqdimat mərasimində çıxış edən Samir Nuriyev müstəqil Azərbaycan Respublikasında müasir maliyyə sisteminin formalaşması və inkişafının Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib. 1990-cı illərin əvvəllərində Ulu Öndər yenidən hakimiyyətə qayıtdıqdan sonra bütün digər sahələrdə olduğu kimi, iqtisadiyyat və maliyyə sahəsində də sabitlik təmin edilib, həyata keçirilmiş ardıcıl və məqsədyönlü islahatlar nəticəsində dayanıqlı maliyyə sistemi yaradılıb.



Prezident Administrasiyasının rəhbəri deyib ki, Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan böyük inkişaf yolu keçib, aparılan iqtisadi islahatlar, şəffaflığın təmin edilməsi, investisiya iqliminin yaxşılaşdırılması nəticəsində sürətli iqtisadi artıma və dövlət maliyyəsinin səmərəli idarə edilməsinə nail olunub.

Azərbaycan Respublikasında maliyyə siyasətini həyata keçirən və dövlət maliyyəsinin idarə olunmasını təşkil edən orqan kimi Maliyyə Nazirliyinin fəaliyyətinin daim Azərbaycan Prezidenti İlham Əliyevin nəzarətində olduğunu bildirən Samir Nuriyev qurumun qarşısında duran vəzifələrlə bağlı dövlət başçısının tapşırıqlarını diqqətə çatdırıb, həmin vəzifələrin icrası üçün bütün imkanların səfərbər olunacağına ümid etdiyini bildirib, işdə yeni təyin olunmuş maliyyə nazirinə və bütün kollektivə uğurlar arzulayıb.

# Milli qanunvericilik və ikitərəfli razılıq əsasında...

## "Rus Evi"nin isə ölkəmizdə hüquqi şəxs qismində qeydiyyatı mövcud olmayıb

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Rusiya Federasiyasının "Rossotrudniçestvo" agentliyinin Azərbaycan Respublikası ərazisində fəaliyyətinə xitam verilməsi ilə bağlı yerli mətbuatın sualını cavablandırıb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, A.Hacızadə bununla bağlı deyib: "Azərbaycan Respublikası ərazisində bu kimi təşkilatların fəaliyyəti milli qanunvericiliyə, ölkələr arasında qarşılıqlı prinsipinə və ikitərəfli əsasda əldə olunmuş razılıqların tələblərinə uyğun olaraq tənzimlənir".




O bildirib ki, "Rossotrudniçestvo"nun Azərbaycandakı nümayəndəliyi olan Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi - "Rus Evi"nin hüquqi şəxs qismində qeydiyyatının mövcud olmadığı və təşkilatın Azərbaycan qanunvericiliyini ciddi şəkildə pozduğu barədə Rusiya tərəfinə məlumat verildikdən sonra, fevralın 3-də "Rus Evi"nin fəaliyyətinə xitam verilməsi barədə Rusiya tərəfinə nota göndərilib: "Bununla, Azərbaycan tərəfinin ölkəmizdə "Rus Evi"nin fəaliyyətinə xitam verilməsi barədə qərarından irəli gələrək, Rusiya tərəfindən bu istiqamətdə müvafiq tədbirlər həyata keçirilməsi gözlənilir".

Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi Mariya Zaxarova da rəsmi Moskvanın Bakıdakı "Rus Evi"nin fəaliyyətinin dayandırılmasına dair nota aldığını təsdiqləyib. Diplomat Rusiya tərəfinin "Rus Evi"nin qeydiyyatının başa çatdırılması üçün lazımi addımların atılmasına hazır olduğunu bəyan etdiyini bildirib. "Azərbaycan diplomatik kanallar vasitəsilə Bakıdakı "Rus Evi"nin fəaliyyətinə xitam verilməsinə dair nota göndərib. Buna cavab olaraq Rusiya tərəfi Azərbaycan qanunvericiliyinə uyğun olaraq "Rus Evi"nin qeydiyyatının başa çatdırılması üçün lazımi addımların atılmasına hazır olduğunu bildirib. Bu addımlar informasiya-mədəniyyət mərkəzlərinin yaradılması və fəaliyyət şərtlərinə dair ikitərəfli hökumətlərarası saziş əsasında atılacaq", - deyə diplomat söyləyib.

Ümumiyyətlə, son zamanlar yayılan məlumatlar göstərir ki, "Rossotrudniçestvo" yaxın və uzaq xaricdə yaşayan soydaşları arasında əməkdaşlıq, rus dilinin yayılması və s. məsələləri prioritet elan etsə də, onun fəaliyyəti şəffaflıq üzərində qurulmayıb. Qurumun dünyanın 70-dən artıq ölkəsində 90-a yaxın nümayəndəliyi fəaliyyət göstərir. Təşkilatın tarixinə gəlincə, 1925-ci ildə keçmiş SSRİ-nin müvafiq strukturlarının xeyir-duası ilə təsis edilib və müxtəlif adlar altında işləyib. O dövrdə hədəf casusluq və "ağ qvardiya"nın xaricdə kök salmış nümayəndələrinin məhv edilməsi, rus icmasının daha çox yaşadığı yerlərdə aktiv fəaliyyət olub.

Təşkilat SSRİ-nin təhlükəsizlik orqanları, o cümlədən ovaxtkı NKVD, sonralar isə DTK və Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsindən aldığı əmr və tapşırıqlara uyğun fəaliyyət göstərib. SSRİ dağıldıqdan sonra "Rossotrudniçestvo"ya çevrilən təşkilatın adı dəfələrlə casus qalmaqallarında çəkilib. Yuxarıda qeyd etdiyimiz kimi, 70-dən artıq ölkədə fəaliyyət göstərən təşkilat müxtəlif səbəblərdən altı ölkədə fəaliyyətini dayandırmalı olub. Onların beşi Avropa ölkəsidir və onların sırasında Sloveniya, Xorvatiya, Makedoniya, Monteneqro və Rumıniya daxildir.

Beləliklə, Azərbaycanın verdiyi qərarın ciddi hüquqi əsasları var. Dövlətimizin mövqeyi beynəlxalq hüquqa və milli qanunvericiliyə əsaslanır.

***Nardar BAYRAMLI***

# Aİ missiyası, yoxsa...

## Maqdalena Qro təkzib edir

Cənubi Qafqazda sülh prosesi ilə bağlı yeni situasiyanın formalaşması sirr deyil. Ermənistan ilə Azərbaycan arasında son bir ildə gedən bəzi proseslər iki dövlətin vasitəçisiz təmaslar qurma imkanlarını nümayiş etdirdi. Ölkələrin delimitasiya üzrə müvafiq komissiyalarının sərhəddə görüşmələri, ardından isə 4 kəndin azad edilməsi ilə bağlı qərarın verilməsi prosesin uğurlu nəticəyə tərəf yol aldığını təsdiqləyən faktorlardan sayılır.






Amma deyəsən, Cənubi Qafqazda təhlükəsizliyin təmin edilməsində maraqlı olmayan bəzi dairələr "anti - sülh" mahiyyətli addımlarını davam etməkdə israrlıdırlar. Məsələn, heç bir siyasi-ictimai mahiyyət daşımayan, sadəcə olaraq regiona "nəzarət" üçün Ermənistana yerləşdirilən Aİ-nin "müşahidə missiyası"nın fəaliyyət müddətinin artırılması ilə bağlı qərar birmənalı qarşılana bilməz - o baxımdan ki, həmin missiyanın əsl "fəaliyyət mexanizmləri" hər kəsə bəllidir. Bu qrup monitorinq missiyası mahiyyətindən daha çox Ermənistanı sülhdən uzaqlaşdırmaq üçün təzyiq vasitəsi kimi istifadə olunur. Bu missiyanın "əsl siması" isə artıq hər kəsə bəllidir. Onların daha çox kəşfiyyat xarakterli fəaliyyətlə məşğul olması sirr deyil. Aİ isə ciddi-cəhdlə bu kimi ittihamları üzərindən atmağa çalışır.

**Qro casusluq fəaliyyətinin aparılmadığını deyir...**

Məsələn, Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Maqdalena Qro erməni mətbuatına müsahibəsində bildirib ki, Aİ müşahidə missiyasını casusluq fəaliyyətində günahlandırmaq doğru deyil və bununla bağlı Azərbaycanda deyilənlər guya həqiqəti əks etdirmir: "Bakıda həmsöhbətlərim də Aİ-nin Ermənistandakı missiyası ilə bağlı Azərbaycanın mövqeyini səsləndirdilər. Biz həmişə hər hansı tənqidi və ya digər fikirləri diqqətlə dinləyirik və iddiaların nə ola biləcəyini və onların arxasında nələrin dayandığını anlamağa çalışırıq. Biz mümkün anlaşılmazlıqları aydınlaşdırmağa çalışırıq, lakin dezinformasiyanı təkzib etməkdə eyni dərəcədə ardıcılıq. Qavrayışlar baxımından mən görüşlər zamanı açıq şəkildə bildirdim ki, Aİ regionda yeni ayırıcı xətlər yaratmaq, "sıfır məbləğli oyunlara" girmək və ya "gizli gündəmi" təbliğ etmək niyyətində deyil. Aİ missiyası Ermənistan hakimiyyətinin suveren tələbi ilə yerləşdirilib. Aİ prosesin bütün mərhələlərində: yerləşdirmədən əvvəl, yerləşdirmə zamanı və sonra Azərbaycan hakimiyyətini məlumatlandırıb. Mən bütün həmsöhbətləri əmin etdim ki, biz öz rolumuza böyük məsuliyyətlə yanaşırıq. Buna görə də biz bir daha bildiririk ki, "casusluq fəaliyyəti" və ya "sabitliyi pozma məqsədləri" ilə bağlı bütün iddialar dezinformasiyadır".

**İki aylığına 40 nəfər yerləşdirilməli idi...**

Aİ rəsmisinə xatırlatmaq yerinə düşər ki, ötən il boyun Ermənistanın əl atdığı intensiv silahlı təxribatlar onların hansı hesabatında yer alıb? Deməli ki, M.Qronun fikirləri heç də bütövlükdə reallığı və həqiqəti əks etdirmir. Missiya ilə bağlı fikirlərində Prezident İlham Əliyev bildirmişdi ki, bu müşahidəçilərin göndərilməsi məsələsi bizimlə 2022-ci ilin oktyabrında Paşinyan, Avropa Şurasının Prezidenti Şarl Mişel, Fransa prezidenti və mənim aramda keçirilən dördtərəfli görüşdə razılaşdırılıb. O vaxt Fransa hələ bizim tərəfimizdən normallaşdırma prosesindən kənarlaşdırılmamışdı. Belə bir razılıq əldə edildi ki, Avropa İttifaqının nümayəndələrinin iki ay müddətində məhdud kontingenti olacaq: "Məhz müşahidəçilərin. İki aylığına 40 nəfər yerləşdiriləcək. Bundan sonra bu missiya bizimlə razılaşdırılmadan uzadıldı və arqument bundan ibarət idi: niyə sizinlə razılaşdırmalıyıq, axı, bu missiya Ermənistan ərazisindədir. Bizim isə arqumentimiz belə idi: razılığa gələndə siz niyə bizimlə razılaşdırdınız? Axı, belə olmaz. Sonra onların sayı 200 nəfərdən çox artırıldı. Bundan başqa, bu missiya tədricən NATO-nun missiyasına çevrildi, belə ki, oraya Kanadanın nümayəndələri qoşuldu".

Göründüyü kimi, missiya sülh prosesinə yardım etməkdənsə, daha çox ziyan vurmaqla məşğuldur. Azərbaycanın haqlı tələbləri və iradları isə ədalətə, beynəlxalq hüquqa söykənir.

**Ermənistanı sülhə yönəltsinlər...**

Aİ rəsmisinin bu fikirlərini elə öz qurumunun qəbul etdiyi sənədlər də təkzib edir. Qurum yaradılan zaman KİV-də yayılan məlumatlarda da bu əks edilirdi - Aİ-nin rəsmi saytında yerləşdirilən 32023D0162 nömrəli sənədin, yəni Avropa İttifaqının Ermənistandakı missiyası haqqında 23 yanvar 2023-cü il tarixli 2023/162 nömrəli qərarın mətninə diqqətlə baxdıqda missiyanın mülki dən çox hərbi missiyaya bənzəməsinin şahidi oluruq. Məsələn: "Strateji məqsəd Ermənistanın münaqişə yaşanan və sərhəd ərazilərində insidentlərin sayının azalmasına kömək etmək, belə ərazilərdə yaşayan əhali üçün risk səviyyəsini azaltmaqdır"; "Təhlükəsizlik vəziyyəti haqqında ətraflı məlumat əldə eləmək"; "Mülki əməliyyat komandiri"; "Missiya rəhbərinə missiyanın təhlükəsizlik üzrə əməkdaşı kömək edəcək" və s.

Bu kimi faktlar bir daha onu göstərir ki, missiya heç də mülki təmayüllü deyil - eyni zamanda, Kanadanın da bu missiyada aktiv iştirakı qrupun Aİ-ni "təmsil" etməsi məsələsini də sual altına alır.

Eyni zamanda, artıq iki ölkə arasında aktiv delimitasiya və demarkasiya prosesi başlayıb. Belə bir məqamda beynəlxalq aləmin təmsilçiləri əgər səmimidirlərsə, Ermənistanı sülhə yönləndirməlidirlər. Hazırkı mövqe ədalətsiz olduğu qədər, həm də birtərəflidir. Çünki Aİ missiyasının təmsilçisi olan dövlətlər həm də Ermənistanı aktiv şəkildə silahlandırmaqla məşğuldurlar...

***S.İSMAYILZADƏ***

# Media şəbəkəsi, QHT toru, xərclənən milyonlar...

## USAID əməkdaşlarının 97 faizi işdən çıxarılır




USAİD-in layihələrinin dayandırılması ilə bağlı qərar hazırda gündəmin əsas müzakirə predmetidir. Artıq uzun illərdir ki, USAID "humanitar yardım", "xeyriyyəçilik fəaliyyəti" adı altında böyük biznes qurub - hətta fərqli siyasi ambisiyaların təmsilçisi rolunda çıxış edir. Son araşdırmalar sübut edir ki, ABŞ vergi ödəyicilərinin vəsaitləri hesabına maliyyələşən USAID fəaliyyətində yol verdiyi xeyli korrupsiya, mənimsəmə halları ilə ABŞ mediasının və beynəlxalq ictimaiyyətin diqqətini daim cəlb edir.



### USAID: harada, nə vaxt, necə...

Qısaca yaxın keçmişə ekskurs etsək, intensiv olaraq USAİD-in korrupsiya bataqlığında olması ilə bağlı onlarla faktın yazıldığını görə bilərik - hətta Qərbin aparıcı nəşrləri belə bu faktlara istinad edirdilər. Məsələn, "Wall Street Journal"ın 2013-cü ildə apardığı araşdırma nəticəsində Afrika qitəsində malyariya xəstəliyinə qarşı mübarizə məqsədilə ayrılan yardımın bir qisminin təyinatı üzrə istifadə olunmadığı aşkara çıxmışdı. Belə ki, USAID-in rəhbərlik etdiyi Malyariya Təşəbbüsü Proqramına 2006-2012-ci illərdə ABŞ büdcəsindən 2,5 milyard dollar xərclənsə də, vəsait hesabına alınan dərmanların heç də hamısının bölgə əhalisinə pulsuz çatdırılması təmin edilməmişdi. İl ərzində qitəyə göndərilən dərmanların 20 faizi cinayətkar şəbəkələrə ötürülərək qara bazarda 60 milyon dollar dəyərində satılmışdı.

Haitidə 2010-cu ildə baş verən güclü zəlzələnin nəticələrinin aradan qaldırılması üçün 3 il ərzində ayrılan vəsaitlərin necə xərclənməsi ilə bağlı da bir çox qaranlıq məqamlar üzə çıxmışdı - ABŞ Hökuməti Hesabatlılıq Ofisinin 2013-cü il yoxlamalarının nəticəsinə görə, ABŞ-dan Haitiyə yönəldilən 1,14 milyard dollarlıq vəsaitin yarısı israf olunmuşdu və ya uğursuz layihələrə xərclənmişdi.

2006-cı ildə isə USAID Kubada demokratiyanın təşviq olunmasına xərclədiyi 74 milyon dollar vəsaitin demək olar ki, hamısını rəqabətli tender və nəzarət olmadan bölüşdürmüşdü. Nəticədə kütləvi fırıldaqçılığa və israfçılığa yol verilmişdi.

Belə misallar yüzlərlədir. USAID-in bütün sahələrdə "yardım kampaniyaları" ya məqsədli şəkildə, ya da korrupsiyaya söykənərək bölüşdürülüb. Hətta illərlə medianın və vətəndaş cəmiyyəti sektorunun vasitəsilə də dünyada "qara bulud" rolunu oynayıb.

### USAID-in "himayə" siyasəti...

Son məlumatlara görə, USAID dünya üzrə 707 media, 6200 jurnalist və 279 jurnalistika sahəsində çalışan QHT maliyyələşdirib. Buradan aydın olur ki, Azərbaycanda 2012-ci ildə "Eurovision" mahnı müsabiqəsindən başlayaraq bu günə kimi, həmçinin müharibə vaxtı, Laçın yolunda ekoloqların aksiyaları, COP29 dövründə beynəlxalq mediada aparılan çirkin kampaniyanın arxasında kim durur. Təsadüfi deyildi ki, 2012-ci ildə mədəni bir tədbir olan bu yarışmanı siyasi oyunların burulğanına atmaq istəyən, bundan öz siyasi məqsədləri üçün istifadə etməyə çalışan qüvvələr bəzən şantaj, bəzən isə məhz siyasi yüklü bəyanatlarla musiqi yarışmasına kölgə salmağa cəhd göstərirdilər. Eyni zamanda, İkinci Qarabağ müharibəsindən sonrakı mərhələdə, antiterror tədbirləri dövründə ölkəmizin haqq-ədalət işinə qarşı aparılan çirkin kampaniya da məhz bu kimi maliyyələşdirmələrin nəticələri kimi ortaya çıxmışdı.

Hələ 2014-cü ildə USAID-in Azərbaycanda medianın inkişafı ilə bağlı elan etdiyi 2,4 milyon dollarlıq qrant layihəsinin qeyri-şəffaf xarakter daşıdığı bildirilmişdi - qeyd edək ki, layihədə iştirak üçün müraciətlərə faktiki olaraq cəmi bir həftə vaxtın ayrılması bir çox potensial iştirakçıların layihədən kənarda qalması ilə nəticələnmişdi. Bu isə onu göstərirdi ki, USAID bu pulların konkret ünvanlara çatdırılmasına çalışır. Qeyd edək ki, Azərbaycanda və digər ölkələrdə ictimai-siyasi sabitliyin pozulmasına yönələn bu kimi maliyyələşdirmələr isə fərqli fondların əli ilə həyata keçirilirdi. USAID də daxil olmaqla bu təşkilatları birləşdirən cəhətlərdən biri də onların əməkdaşlıq etdikləri, layihələrinə cəlb olunan qurumların adlarının çox zaman gizli saxlanması olurdu - beləliklə, USAID özünün əlaltılarını cəmiyyətə "tanıtmırdı".












### 8 milyon dollarlıq "məqalə"...

Artıq USAID-in ofisinin və nümayəndəliyinin əməkdaşlarına fevralın 7-dən inzibati məzuniyyət verilib. RBC xəbər verir ki, yalnız xüsusi əhəmiyyətli funksiyalara cavabdehlik daşıyan işçilər öz vəzifələrini yerinə yetirməyə davam edəcəklər. Xaricdə işləyən agentlik mütəxəssisləri üçün ayrıca plan hazırlanıb. Onlara ABŞ-a qayıtmaq üçün pul ödəniləcək və köçmə bir ay ərzində tamamlanmalıdır.

Qeyl edək ki, Dövlət İdarəçiliyinin Səmərəliliyi Departamenti düzgün icra olunmayan və ya gözlənilən nəticəni verməyən 78 müqaviləyə xitam verildiyini açıqlayıb. Müqavilələrin dayandırılmasından əldə edilən qənaət 110 milyon dollara çatıb. Bağlanan proqramlar arasında mediaya, jurnalistlərə və qeyri-kommersiya təşkilatlarına maliyyə dəstəyi də daxildir. Agentliyin yardımını itirən nəşrlər arasında Amerikanın "Politico", "The New York Times" qəzetləri və "Associated Press" informasiya agentliyi də var.

Donald Tramp "Truth Social" sosial şəbəkəsində bildirib ki, USAID Demokratlar Partiyası haqqında bir neçə müsbət məqaləyə görə "Politico"-ya 8 milyon dollar ödəyib. Amerika lideri demokratlar üçün müsbət imic yaratmaq naminə yerli vergi ödəyiciləri hesabına edilən çoxmilyon dollarlıq "investisiyalar" ilə heç də razı deyil.

### 1000 işçidən 294-ü qalır...

Bir sıra USAID əməkdaşları isə Dövlət Departamentinin xaricdə maliyyələşdirmə proqramlarını dondurmaq əmrinə məhəl qoymayıb. Bundan ABŞ-ın Dövlət katibi Marko Rubio xəbər tutub. "Bu, xeyriyyəçilik deyil. Bunlar özəl fondlar deyil", -söyləyən Rubio Qvatemala prezidenti Bernardo Arevalo ilə fevralın 6-da keçirdiyi mətbuat konfransında agentliyin qanun pozuntularını da şərh edib: "Bu, Amerika vergi ödəyicilərinin puludur və biz onu ağıllı şəkildə xərcləməyə borcluyuq".

Rubio vurğulayıb ki, agentliyin rəhbərliyi Dövlət Departamenti ilə düzgün qarşılıqlı fəaliyyət göstərmir. Fevralın 7-də məlum olub ki, Ağ Ev USAID əməkdaşlarının 97 faizin işdən çıxarmağı planlaşdırıb. Agentlikdə təxminən 10 min işçi çalışır. "Reuters" xəbər verir ki, yalnız 294 mütəxəssis öz işində qalacaq.

***P.İSMAYILOV***

# ABŞ daha bir təşkilatdan çıxdı...

## Tramp ölkəsinin BMT-nin İnsan Hüquqları Şurasındakı fəaliyyətinə xitam verib





ABŞ Birləşmiş Millətlər Təşkilatının nəzdində fəaliyyət göstərən bəzi qurumların üzvlüyündən çıxmağa başlayır. Ağ Evin mətbuat xidmətinin məlumatına görə, fevralın 4-də ABŞ-ın yeni prezidenti Donald Tramp BMT-nin İnsan Hüquqları Şurasından (BMT İHŞ) və BMT-nin Fələstin Qaçqınlarına Yardım və İşlərin Təşkili üzrə Yaxın Şərq Agentliyindən çıxmaq barədə sərəncam imzalayıb. Yayımlanan sənəddə dövlət rəhbərinin bu addımı ilə bağlı geniş təfərrüatlar qeyd olunmayıb.

Qeyd edək ki, Donald Tramp birinci prezidentliyi dövründə də belə bir addım atmışdı. Ağ Evə yenidən qayıtdıqdan sonra onun təkrarən bu addımı atmasının səbəblərinə gəlincə, o, hesab edir ki, qurum İsrailə qarşı qərəzli yanaşma sərgiləyir və insan hüquqlarını pozan hökumətləri müdafiə edir.

Xatırladaq ki, Tramp bundan əvvəl - prezident səlahiyyətlərinin icrasına dərhal başladıqdan sonra ABŞ-ın Ümumdünya Səhiyyə Təşkilatından (ÜST) çıxması barədə fərman imzaladı - o, prezident seçkiləri kampaniyası zamanı çıxışlarının birində qurumu ABŞ-a qarşı ədalətsiz münasibət sərgiləməkdə günahlandırmışdı.

Hətta bəzi məlumatlara görə, Vaşinqtonun BMT-nin digər qurumlarından çıxacağı da gözlənilir.

ABŞ-ın BMT-nin İnsan Hüquqları Təşkilatının üzvlüyündən çıxması bir çoxları tərəfindən birmənalı qarşılanmayıb - onlar hesab edirlər ki, Trampın bu addımı digər dövlətləri də belə bir addım atmağa sövq edə bilər.

Məlumat üçün bildirək ki, Birləşmiş Millətlər Təşkilatının nəzdində fəaliyyət göstərən İnsan Hüquqları Təşkilatı BMT-nin Baş Assambleyası tərəfindən 15 mart 2006-cı ildə təşkilatın İnsan Hüquqları Komissiyasını əvəz etmək üçün yaradılmışdır. İnsan Hüquqları üzrə Ali Komissarlıq İdarəsi ilə sıx əməkdaşlıq edən və BMT-nin xüsusi prosedurlarını həyata keçirən qurum BMT-yə üzv olan ölkələrdə insan hüquqlarının pozulması ilə bağlı iddiaları araşdırır , xüsusilə birləşmək və toplaşmaq azadlığı, ifadə azadlığı, inanc və din azadlığı, qadın hüquqları, irqi və etnik azlıqların hüquqlarının qorunmasına yönələn təbliğat kampaniyası aparır. Şuranın üç il müddətinə seçilən 47 üzvü var və baş qərargahı İsveçrənin Cenevrə şəhərində yerləşir.

**Fikirlər tam obyektivdir...**

Maraqlıdır, hər zaman özünü beynəlxalq insan hüquqlarının və beynəlxalq humanitar dəyərlərin təminatçısı kimi qələmə verən ABŞ-ın belə bir qurumun üzvlüyündən çıxması qlobal dünyada hansı proseslərə gətirib çıxara bilər?

Məsələ ilə bağlı politoloq Yeganə Hacıyeva "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Donald Trampın beynəlxalq insan hüquqlarının təminatına söykənən mexanizmlərin səmərəliyi ilə bağlı fikirləri tam obyektivdir.

"Tramp dəfələrlə bəyan edib ki, istər insan haqları, istərsə də digər sahələrdə beynəlxalq mexanizmlər müəyyən qüvvələr tərəfindən kənar məqsədlər üçün istifadə olunur. Buna görə də o, BMT-nin İnsan Hüquqları Şurasının, hətta USAİD-in fəaliyyətinin səmərəsiz olduğunu və qənaətbəxş olmadığını hesab edir. Trampın bu təşkilatlar ilə bağlı imzaladığı sərəncamlar məhz bu səbəbdən irəli gəlir".

**Quruma kənar müdaxilələr var**

"BMT-nin İnsan Hüquqları Şurasının fəaliyyəti ilə bağlı məsələdə onu qeyd etmək lazımdır ki, bu qurum bir neçə qrupun əlində siyasi maşa kimi istifadə olunur. Bir məqamı da vurğulayım ki, 2018-ci ildə, yəni Trampın birinci prezidentliyi dövründə ABŞ-ın BMT-dəki nümayəndəsi İnsan Hüquqları Şurasını maliyyə qarşılığında hərəkət edən riyakar qurum adlandırmışdı. Əslində o, bu məsələdə haqlıdır. Çünki həqiqətən, bu qurumun fəaliyyətinə kənardan müdaxilələr olur," - deyə Y.Hacıyeva vurğulayıb ki, İnsan Hüquqları Şurasının ekspertləri heç bir zaman Azərbaycana münasibətdə ədalətli və düzgün mövqe sərgiləməyiblər: "2023-cü il sentyabrın 19-da Azərbaycan ordusunun Qarabağda birgünlük antiterror əməliyyatlarından sonra erməni lobbisi və onun havadarları ölkəmizə qarşı kampaniyaya başladılar ki, guya Qarabağda ermənilər "etnik təmizləməyə" məruz qalıblar. Amma reallıq budur ki, oradakı ermənilər könüllü şəkildə ərazini tərk ediblər. İnsan Hüquqları Şurasının erməni lobbisinin bu kampaniyasına dəstək verməsi ciddi təəssüf doğrurur".

**Trampın addımı nə vəd edir?**

Y.Hacıyeva hesab edir ki, BMT-nin İnsan Hüquqları Şurası möhkəm bir təsisatdır və onun parçalanması qeyri-mümkündür: "Bu qurumun prinsipləri dayanıqlı təməllərə əsaslanıb, həmçinin beynəlxalq sistemdə ona qarşı alternativ bir təsisat da yoxdur. Bu baxımdan qurumun fəaliyyəti davam edəcək".

***Yunis ABDULLAYEV***

# Beynəlxalq birlik Azərbaycanın təşəbbüslərini dəstəkləyir

## COP29-da qəbul olunan qərarlar BMT səviyyəsində təqdir edilir

***Nardar BAYRAMLI***




Bu gün dünyada təbiətə vurulan zərərin, ekoloji problemlərin qarşısının alınması qlobal bir çağırışdır. Getdikcə daha təhlükəli hal alan bu təhdidlər təxirəsalınmaz tədbirlər görülməsini, ölkələrin və beynəlxalq təşkilatların koordinasiyalı fəaliyyət göstərməsini zərurətə çevirib. Azərbaycan da bu çağırışa qoşulan ölkələr sırasındadır. Azərbaycanda ətraf mühitin mühafizəsi, ekologiyanın qorunması xüsusi diqqət mərkəzindədir. Ötən dövr ərzində bu istiqamətdə ölkə rəhbəri tərəfindən dövlət proqramları təsdiq edilib, müvafiq fərman və sərəncamlar imzalanıb. Milli Məclis müvafiq qanunlar qəbul edib.

**Azərbaycan yaşıl enerji istiqamətində vacib addımlar atır**

Görülən işlər nəticəsində ekologiyamızın və ətraf mühitin qorunması istiqamətində uğurlar əldə edilib. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bölgəsinin yaşıl enerji zonası elan olunması da bu baxımdan yüksək dəyərləndirilməlidir. Lakin bəhs etdiyimiz qlobal mənzərə milli səviyyələrdə ölkələrin məsuliyyətini artırır. Hər bir dövlət öz siyasətində dekarbonizasiya məsələlərini önə çəkməlidir. Bu mənada, Azərbaycanın yanaşması təqdirəlayiqdir. Respublikamız iqlim dəyişiklikləri ilə bağlı BMT-nin çağırışlarına fəal şəkildə qoşulan ölkələr sırasında yer alır. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı qərarın qəbul olunması da dünya dövlətlərinin ölkəmizin bu istiqamətdə səylərinin və töhfələrinin nəticəsi idi. Ötən ilin noyabr ayında Azərbaycan COP29-a yüksək səviyyədə ev sahibliyi etməklə iqlim dəyişiklikləri ilə mübarizədə öhdəliklərə sadiq olduğunu beynəlxalq ictimaiyyətə nümayiş etdirdi.

Bu tədbirdə iştirak etmək üçün 196 ölkədən 72 min iştirakçının qeydiyyatdan keçməsi, qonaqların arasında 80 prezidentin, vitse-prezidentin və Baş nazirin olması isə həm dövlətimizə etimadın, həm də onun beynəlxalq arenada oynadığı fəal rolun növbəti sübutu idi. Azərbaycan COP29-a uğurla ev sahibliyi etməklə bu mötəbər tədbirlə bağlı göstərilən etimadı layiqincə doğrultdu. İstər qonaqların tədbirin yüksək səviyyədə təşkil olunması barədə fikirləri, istərsə də Bakıda qəbul olunan mühüm qərarlar bunun sübutudur.

**BMT nümayəndəsi: Bakıda razılaşdırdığımız yeni qlobal hədəf...**

Bakıda keçirilən COP29-da qəbul olunan qərarların önəmi və icrasının vacibliyi beynəlxalq birlik tərəfindən də vurğulanır. Belə ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (BMT İDÇK) icraçı katibi Saymon Stil Braziliyada Riu-Branku İnstitutunda keçirilən "Təmiz enerjiyə keçidin qarşısını almaq artıq qeyri-mümkündür: maliyyə yol xəritəsi, adaptasiya və ədalətli keçid əsas amillərdir" adlı konfransda çıxışı zamanı bildirib ki, Bakıda razılaşdırdığımız iqlim maliyyələşdirilməsi üzrə yeni qlobal hədəf irəli doğru vacib addımdır: "Təbii ki, ilkin formasında bütün ehtiyacları ödəyə bilməyəcək. Ancaq 300 milyard dollar ilkin mərhələdir. İnkişaf etməkdə olan ölkələrə daha çox maliyyə vəsaiti ayrılmalıdır, çünki onlar xarici borcları ödəmək üçün ayırdıqları yüksək sərfiyyat və yüksək kapital dəyəri ilə mübarizə aparmağa məcburdurlar".

"On il əvvəl Parisdə maliyyə vəsaitlərinin yönləndirilməsi ilə bağlı razılığa gəldik. Qərara alındı ki, bütün maliyyə axınları iqlim öhdəliklərimizə uyğun olmalıdır. Beynəlxalq maliyyə sisteminin yenidən istiqamətləndirilməsi çətin işdir. Lakin bu il qarşımıza məqsəd qoymuşuq ki, addım-addım 1,3 trilyon dollar həcmində maliyyələşdirməni necə təmin edəcəyimizi müəyyənləşdirək. Hər bir ölkədə uğurun məcburi şərti iqlim dəyişikliyi ilə mübarizə tədbirlərinin gətirdiyi böyük faydalara hər kəsin ədalətli çıxışının təmin edilməsidir. Ona görə də 2025-ci ildə dəyişiklik əsas istiqamətə çevirilməlidir", - deyə BMT İDÇK icraçı katibi vurğulayıb.

S.Stil deyib ki, nəticələrə nail olmaq üçün koalisiyaların yaradılması on ilin həlledici dövrüdür. Onun sözlərinə görə, bu müddətdə ölkələr daha böyük fayda əldə etmək üçün liderlər sırasında olmağa can atacaqlar: "COP sammitlərində hər bir ölkənin bütün istəyi qəbul olunmur. Hər məsələ ilə bağlı yekdil olmaq lazımdır. Səhnə arxasında bütün gücünü səfərbər edərək strateji vacib addım atan koalisiyalar haqqında eşidəndə inanıram ki, bu güc istər tropik meşələrlə bağlı olsun, istər birja, istər ədalətli mənfəət tələb edən vətəndaş və ya öz öhdəliklərinə sadiq qalan və sektorları üçün inkişaf yolları axtarıb tapan liderlərlə bağlı olsun, biz bu qarşısıalınmaz transformasiyadan maksimum fayda əldə edə biləcəyik".

# "Psixotrop maddə" yalanı ifşa olunur

Məğlub Ermənistanın hazırkı rəhbərliyində təmsil olunanlar müharibə cinayətlərinə görə məsuliyyətlərini örtbasdır etmək üçün müxtəlif manipulyasiyalara əl atır və cəfəng iddialar səsləndirməklə iz azdırmağa çalışırlar. Belə iddialardan birini N.Paşinyan bu günlərdə ölkəsinin ictimai televiziyasına verdiyi müsahibəsində dilə gətirib. O, Bakıda saxlanılan separatçı rejimin nümayəndələrinə qarşı psixotrop maddələrin tətbiq olunduğunu bildirib. Təbii ki, baş nazir bu absurd iddianı ictimai müzakirəyə təqdim edərkən hansısa bir dəlil-sübut göstərməyib.

## Arayik Harutyunyan və Davit Babayandan gecikməyən təkzib

Azərbaycan hüquqi dövlətdir və qoşulduğu beynəlxalq konvensiyalardan irəli gələn öhdəliklərinin məsuliyyətini yaxşı başa düşür. O cümlədən 23 saatlıq lokal xarakterli antiterror tədbirlərindən sonra saxlanılaraq Bakıya gətirilən və artıq məhkəmələri başlayan separatçı rejimin nümayəndələrinə münasibətdə müvafiq qurumlarımız tərəfindən beynəlxalq hüquq normaları çərçivəsində və milli qanunvericiliyimizə uyğun qaydada davranışlar sərgilənir. Onların layiq olduğu cəza isə məhkəmədə müəyyənləşəcək. Burada hansısa bir digər, qanundankənar yanaşma istisna olunur. Qeyd edək ki, N.Paşinyanın məlum açıqlamasına cavab özünü çox gözlətmədi. N.Paşinyanın absurd iddiaları təqsirləndirilən şəxslər tərəfindən də təkzib olunub. Çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Arayik Harutyunyan hazırda baxılan cinayət işi üzrə ittiham olunan şəxslərə psixoloji təzyiq göstərilməsi və psixotrop dərmanların verilməsinə dair Ermənistan mediasında yayılan iddiaları yalan adlandırıb. O, bunu Azərbaycan xalqına qarşı çoxsaylı cinayətlərin törədilməsində təqsirləndirilən ermənəsilli şəxslərin cinayəti işləri üzrə məhkəmə proseslərinin fevralın 6-da keçirilən baxış iclasında deyib. "Nəzərə alsaq ki, təcridxanada bizim məlumat almaq, etiraz etmək imkanlarımız olub. Həmçinin Ermənistan mediasında və digər kütləvi informasiya vasitələrində bizim saxlanma şəraitimiz daim müzakirə olunur. Başa düşdüyüm qədərilə, Ermənistan Respublikasının baş naziri (Paşinyan-red.) bəyan edib ki, bizə qarşı psixoloji təzyiq və həmçinin psixotrop dərmanlardan istifadə edilməsi barədə fikirləri var. Mən ən çox bizim doğmalarımız, yaxınlarımız barədə narahatlıq keçirirəm. Bəyan etmək istəyirəm ki, mən saxlanma şəraitinə dair qanunla tanışam. Təcridxanada bütün qanunlara əməl olunur, Beynəlxalq Qırmızı Xaç Komitəsi vaxtaşırı olaraq bizi ziyarət edir. Bizim ailə üzvlərimizlə telefon zəngi imkanlarımız olur. Təcridxa-



nada bizə qarşı münasibət qanuni qaydada təmin olunur və bizimlə qanuni davranırlar. İstintaq dövründə də müstəntiqlər tərəfindən hüquqlarımız təmin olunub. Vəkillər həmişə istintaqda iştirak ediblər. Xüsusilə qeyd etmək istəyirəm ki, bizə qarşı hər hansı bir təzyiq olmayıb. İstintaq zamanı bizimlə hər zaman qanun çərçivəsində davranıblar", - deyə Arayik Harutyunyan vurğulayıb.

Ermənəsilli şəxslərin cinayət işləri üzrə məhkəmə proseslərinin fevralın 6-da keçirilən baxış iclasında həmçinin də Azərbaycan xalqına qarşı çoxsaylı cinayətlərin törədilməsində təqsirləndirilən Ermənistan vətəndaşı Davit Babayan da oxşar məzmunlu fikirlər ifadə edib. Təqsirləndirilən şəxs çıxış edərək saxlanma şəraitindən razı olduğunu, ona və digər təqsirləndirilən şəxslərə heç bir təzyiq göstərilmədiyini deyib. Sitat: "Bizə hər dəfə hörmətlə davranırlar və yerimizdə başqası olsa nə edərdi onu özlərinə sual versinlər. Bizim həqiqəti demək cəsarətimiz var. Həqiqət sərhəd tanımır. Burada saxlanma yerimiz də çox yaxşıdır".

Əlavə şərhə ehtiyac yoxdur. N.Paşinyanın yalanları Bakıda növbəti dəfə ifşa olundu. Bu dəfə artıq N.Paşinyanın çək-çevir etməyə bəhanəsi yoxdur - onun dediklərinə təkzib zamanında dəstək verdiyi separatçı rejimin təmsilçilərindən gəlib.

## Paşinyanın uydurmaları nəyə hesablanıb?

Məntiqi sual yaranır: Bəs N.Paşinyanın uydurmaları nəyə hesablanıb? Bəhs olunan şəxslərin həbsindən xeyli müddət keçib. N.Paşinyan isə onların barəsində az danışmağa və yaxud heç danışmamağa üstünlük verirdi. Baş nazirin sükutunu pozan isə Arayik Harutyunyanın 44 günlük müharibə günlərində Gən-



cənin raket atəşinə tutulması barədə bəyanat səsləndirməsi oldu. O bildirdi ki, zamanında Gəncənin raketlə vurulması əmrini verməyib və belə bir səlahiyyəti olmayıb.

Bəli, N.Paşinyanın dilinin qıfılı da məhz A.Harutyunyanın bu bəyanatından sonra açıldı. Bunun səbəblərini isə Ermənistanın indiki rəhbərliyinin keçmişində axtarmaq lazımdır. Bu gün özünü dünyaya demokrat, sülh tərəfdarı kimi təqdim edən N.Paşinyanın İkinci Qarabağ müharibəsinədək olan dönəmdə sərgilədiyi əməllər unudulmayıb və unudulmayacaq. Bir vaxtlar "Qarabağ Ermənistandır və nöqtə" deyən bu şəxsdir. Baş nazirin ölkəmizin ərazilərində saxladığı qondarma rejimi təbliğ etdiyini və 2 sentyabr 2023-cü il tarixində, nümayəndələrinin Azərbaycan tərəfindən məsuliyyətə cəlb edilməsindən bir neçə həftə əvvəl, separatçı xunta rejimini qondarma "müstəqillik" münasibətilə təbrik etdiyini heç kim unutmayıb. Bəli, Ermənistan tərəfindən Azərbaycana qarşı çoxsaylı müharibə cinayətləri törədilib, Gəncə və digər şəhərlərimiz qadağan olunmuş silahlarla vurulub. Bütün bu cinayətlərin əmrinin Ermənistanın hərbi-siyasi rəhbərliyi tərəfindən verildiyi istisna olunmur. Məhkəmədə çox faktlar üzə çıxacaq. Artıq A. Harutyunyan Gəncənin raket atəşinə tutulması ilə bağlı ipucu verib. N.Paşinyanın və onun komandasında yer alan digərlərinin də təlaşı məhz bu sarıdandır. Arayik Harutyunyanın son açıqlamasına istinadən, Gəncəyə raket atılması əmrinin Ermənistan rəhbərliyindən gəldiyi qənaətini ifadə edə bilərik. Görünür, Bakıda keçirilən məhkəmə fonunda İrəvanın siyasi elitasında çaxnaşma yaranması da elə bununla bağlıdır. Ermənistan rəhbərliyi məhkəmədə konkret adların çəkiləcəyindən bərk narahatdır və buna görə də "psixotrop maddə" versiyasını gündəmə gətirib. Çünki adlar çəkiləcəyi təqdirdə, əmri verən şəxsin məsuliyyəti yaranacaq. N.Paşinyan və onun komandasının üzvlərinin "psixotrop maddə" manipulyasiyalarıyla məsuliyyətdən kənara çəkilmələri isə əsla mümkün olmayacaq.

**Mübariz FEYİZLİ**

# Ermənistanın ekoloji terror siyasəti...

## İrəvan törətdiyi cinayətlərə görə beynəlxalq məhkəmələrdə cavab verəcək

Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı Azərbaycan ərazilərində törətdiyi ağır cinayətlər sırasında ekoloji cinayətlərin də miqyası çox böyükdür. Azərbaycan öz torpaqlarını işğaldan azad etdikdən sonra biz görürük ki, Ermənistan uzun illər işğal altında saxladığı torpaqlarımızda təbiətə qarşı da düşmən münasibət sərgiləyib. Ermənilərin törətdiyi terror nəticəsində regionun ekologiyası üçün ciddi təhlükələr yaranıb. Belə ki, həmin ərazilərdə bioloji müxtəlifliyə, flora və fauna növlərinə, xüsusi mühafizə olunan təbiət ərazilərinə ciddi zərər vurulub, ərazilər yandırılıb, su resursları çirkləndirilib, qiymətli ağac növləri ilə zəngin olan meşələr məhv edilib. Ümumilikdə, yeraltı və yerüstü sərvətlərin məqsədli şəkildə talan edilməsi nəticəsində bu bölgədə ekoloji tarazlıq pozulub və Azərbaycanın ekologiyasına ciddi ziyan dəyib.



### Arbitraj prosesi davam edir...

Yeri gəlmişkən, Azərbaycan dövləti 2023-cü il yanvarın 18-də "Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında" Bern Konvensiyasına uyğun olaraq indiyədək məlum olan ilk dövlətlərarası arbitraj prosesini başladıb. Bu arbitraj işi, təxminən otuz il ərzində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin qanunsuz işğalı dövründə Ermənistanın Azərbaycanın ətraf mühitinin və biomüxtəlifliyinin geniş miqyasda məhv edilməsinə görə məsuliyyətə cəlb etmək məqsədi daşıyır. 2020-ci ildə ərazilərini işğaldan azad edən Azərbaycan, Ermənistanın qanunsuz işğalı dövründə ətraf mühitin məhv edilməsi ilə bağlı bütün dəlilləri toplayıb. Bu əməllər bölgədəki təbii yaşayış mühitinə və növlərinə ciddi ziyan vurmaqla, təbii ehtiyatların tükənməsinə və biomüxtəlifliyin məhv olmasına səbəb olub. Ermənistan tərəfindən meşələrin kütləvi şəkildə qırılması, ağacların kəsilməsi və işğaldan öncə təbiət qoruqları olan ərazilərdə qanunsuz tikinti və mədənçilik fəaliyyətinin aparılması ilə ərazilərin çirklənməsi Azərbaycanda 500-dən çox vəhşi təbiət növünü təhlükə altında qoyub.

### Azərbaycana təzminat ödəniləcək

Azərbaycan tərəfindən qaldırılan dövlətlərarası iddiada qeyd olunur ki, digər öhdəliklərlə yanaşı, Ermənistan bütün vəhşi flora və faunanın populyasiyalarını qorumaqla bağlı Bern Konvensiyasından irəli gələn hüquqi öhdəliklərini, xüsusilə də, vəhşi flora və fauna mühitinin qorunub saxlanılmasını, bərpasını və təkmilləşdirilməsini təmin etmək üzrə öhdəliyini kobud surətdə pozub. Birləşmiş Millətlər Təşkilatının Ekosistemlərin Bərpası Onilliyinə uyğun olaraq, Azərbaycan beynəlxalq ictimaiyyəti Ermənistanın dünyanın ən zəngin və bioloji müxtəlif ekosistemlərindən birini işğal dövrü ərzində məhv etməsini pisləməyə çağırır. Arbitraj prosesi çərçivəsində Azərbaycan Ermənistandan Bern Konvensiyasının hazırda davam edən bütün pozuntularına son qoymağı və işğal altında olmuş ərazilərdə ətraf mühitin məhvinə görə Azərbaycana tam kompensasiya ödəməyi tələb edir.

Hələ 2022-ci ildə BMT-nin Ətraf Mühit Proqramı (UNEP) Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində "xüsusi mühafizə olunan və qiymətli meşələr"in qorunmadığını qeyd edib. Laçında yerləşən Dəmirli-1 mədəninin, Qalaça su elektrik stansiyasının və Çardağlı mədəninin tikilməsi üçün yaşayış yerlərinin məhv edilməsi də daxil olmaqla, meşələrin qırılmasının ifrat dərəcəsini göstərən əyani dəlillər mövcuddur. Ermənistanın bu addımları çayların, o cümlədən Ermənistandan Azərbaycan ərazisinə axan transsərhəd çayların həddindən artıq çirklənmə səviyyəsinə gəlib çıxmasına da səbəb olub. 2022-ci ildə UNEP, həmçinin Ermənistanın bölgədəki mədən sənayesinin inkişafının çayətrafı yaşayış yerlərində "suyun, torpağın, flora və faunanın kimyəvi çirklənməsinə" səbəb olduğunu, Oxçuçay çayında yüzlərlə balığın ölü tapıldığını, bir neçə qorunan balıq və amfibiya növünün təhlükə altında olduğunu qeyd edib.

Transsərhəd çay olan Oxçuçay Ermənistan ərazisində bu gün də kəskin çirklənməyə məruz qalır. Ümumiyyətlə, monitorinqlərin nəticələrindən də göründüyü kimi, Qafan və Qacaran dağ-mədən sənayesinin tullantıları ilə həddsiz dərəcədə çirkləndirilən Oxçuçay, sanki, sənaye tullantılarının kollektoru rolunu oynayır. Bu sular təmizlənmədən birbaşa çaya axıdıldığı və çirklənmə səviyyəsi dəfələrlə normadan artıq olduğu üçün onun su ehtiyatlarının ölkə ərazisində istifadəsi yararsız hesab edilir.

### Regionun ekologiyasını zəhərləyən Ermənistan müəssisələri barədə rəqəmsal xəritə hazırlanır

İşğalçı ölkənin bu əməllərinə qarşı Azərbaycanın vətəndaş cəmiyyəti də fəal mübarizə aparır. Ermənistanın Cənubi Qafqazın ekologiyasını zəhərləyən dağ-mədən sənayesi fəaliyyətinə qarşı cəbhə açan Azərbaycan QHT-lərini birləşdirən "Environmental Protection First" Koalisiyası əsas çirkləndiricilərin foto, video təsvirləri barəsində məlumat əsasında hazırlanmış rəqəmsal xəritəni tezliklə ictimaiyyətə təqdim edəcək. Fevralın 5-də "Environmental Protection First" Koalisiyası rəqəmsal xəritə üzərində tamamlama işlərini davam etdirib. Bu barədə Koalisiyaya üzv "Azərbaycan Kartoqrafları" İctimai Birliyinin sədri Müqabil Bayramov məlumat verib. O deyib ki, rəqəmsal xəritə üzərində bir ildən çoxdur fəal iş gedir. Bu resurs 3



dildə - Azərbaycan, ingilis və erməni dillərində olacaq.

"Environmental Protection First" Koalisiyası 2024-cü ildə Azərbaycan, ingilis və erməni dillərində "Ermənistan Respublikasının mineral xammal resursları" adlı xəritə də hazırlayıb. Ötən il hazırlanmış həmin xəritənin rəqəmsal xəritə üçün baza rolunu oynadığını vurğulayan M.Bayramov bildirib: "Biz bir daha deyirik ki, heç bir ekoloji norma və standartları gözləməyən Ermənistanın bütün bölgəni zəhərləməyə ixtiyarı yoxdur. Ermənistan və dünya ictimaiyyəti ondan gizlədilənlər barədə mütləq xəbər tutmalıdır. Biz bu məsələni belə qoymayacağıq. "Environmental Protection First" Koalisiyası xarici tərəfdaşlarla sıx iş aparır. Ötən ilin mayında Keniyada BMT-nin Vətəndaş Cəmiyyəti Forumunda, sentyabrında Nyu-Yorkda BMT-nin Gələcəyin Sammiti tədbirində, daha sonra Bakıda COP29-da biz bu məsələləri qaldırmışıq, tərtib etdiyimiz xəritə böyük maraqla qarşılanıb, beynəlxalq ekspertlərə paylanılıb".

Koalisiyanın tələbinin dəyişməz olaraq qaldığını diqqətə çatdıran M.Bayramov qeyd edib: "Ermənistan özünün dağ-mədən müəssisələrində beynəlxalq qurumlarla birgə ekoloji monitorinqlər keçirmək üçün Azərbaycan QHT-lərinə şərait yaratmalıdır. Ermənistanın baş naziri Nikol Paşinyan niyə sorğumuza cavab vermir? Vətəndaş cəmiyyəti təsisatları olaraq Ermənistana bu barədə Açıq Məktubla müraciətimiz olub".

**N.BAYRAMLI**

# Regionlarımızın iqtisadi tərəqqisi...

## Respublikanın ümumi inkişaf göstəricilərinə təsir edən mühüm faktordur

*Yeganə BAYRAMOVA*

Regionların inkişafı hər bir ölkənin sosial-iqtisadi tərəqqisinin təmin edilməsi, vətəndaşların həyat keyfiyyətinin yaxşılaşdırılması və qlobal səviyyədə rəqabət qabiliyyətinin artırılması üçün əsas amillərdən biri hesab edilir. Azərbaycanın iqtisadi siyasətinin ön komponenti olmaqla yanaşı, regionların inkişafı həm də yeniləşmə, davamlı inkişaf, sosial-iqtisadi tarazlıq, modern reformalar, innovativ iqtisadiyyata hazırlıq, kreativ quruculuq və digər sistemli hədəflər üçün inkişaf meyarıdır. 2004-cü ildən başlayaraq bir neçə mərhələdə həyata keçirilən təsirli və kompleks tədbirlərin icrasının mövcud tendensiyası, qazanılmış misilsiz nailiyyətlər tam əsasla bir real tezisi meydana çıxarır: XXI yüzillikdə Azərbaycan iqtisadi, sosial, siyasi, ictimai, humanitar, elmi-mədəni cəhətdən əsaslı dönüşə və yüksək indikatorlara nail olan, iqtisadiyyatını bir neçə dəfə inkişaf etdirməklə dünya üzrə ən proqressiv meyarlara malik olan tam modernləşən dövlətə çevrilib.



Aparılan siyasət respublikamızın sıçrayışlı inkişafını təmin etməklə yanaşı, insanların sosial həyatının yaxşılaşması, bölgələrin simasının əhəmiyyətli dərəcədə dəyişərək yeni proqressiv çalarlar almasında mühüm rol oynayıb. İstehsal müəssisələrinin fəaliyyətinin bərpası və yeni sənaye obyektlərinin yaradılması, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, regionların inkişafı üçün zəruri infrastrukturun yaradılması, aqrar sektorda intensiv metodlardan istifadə, fermerlərə və digər kənd təsərrüfatı işçilərinə dəstək məqsədilə müxtəlif servis mərkəzlərinin, investorların regionlara cəlb olunması üçün əlverişli şəraitin yaradılması, yeni iş yerlərinin açılması və digər kompleks tədbirlərin görülməsi nəticəsində regionların sosial-iqtisadi inkişafında dönüş yaranıb. Şübhəsiz, regionların inkişafı bütövlükdə respublikanın ümuminkişaf göstəricilərinə təsir edən mühüm faktordur.

**Ölkə iqtisadiyyatında 3,4 dəfə artım...**

Mövzu barədə "Yeni Azərbaycan"a danışan iqtisadçı Fuad İbrahimov bildirib ki, sosial-iqtisadi inkişaf konsepsiyası olmadan regionların iqtisadi inkişafı məsələlərini tənzimləmək mümkünsüzdür: "Məhz bu reallıqdan çıxış edərək ölkə başçısı 2003-cü ildən başlayaraq Azərbaycanın yeni iqtisadi siyasət strategiyasını həyata keçirməyə başladı. İndiyədək dövlət proqramları konsepsiyasında həyata keçirilən siyasətin əsas istiqaməti regionların sosial-iqtisadi inkişafına şərait yaradılması və təşviqinin başlıca istiqamət kimi müəyyənləşdirilməsidir.

Bu siyasət tezliklə öz bəhrəsini verdi. Regionlarda quruculuq-abadlıq işləri geniş vüsət aldı, yeni istehsal və xidmət müəssisələri, sosial infrastruktur obyektləri açıldı, əhalinin məşğulluq səviyyəsi yüksəldi. Ötən illərdə bölgələrdə kənd təsərrüfatı sahələri inkişafında yeni mərhələyə qədəm qoydu. Məhz Prezidentin rəhbərliyi ilə həyata keçirilən bu proqramlar nəticəsində 20 ildən çox müddətdə mühüm iqtisadi nailiyyətlər qazanıldı - ölkə iqtisadiyyatı 3,4 dəfə, ÜDM nominal ifadədə 22 dəfə artdı".

**Regionların inkişafı siyasətimizin prioritet istiqamətidir**

F.İbrahimov qeyd edib ki, bölgələrimizdə rəqabətqabiliyyətli məhsul istehsalında mühüm rol oynayan aqroparkların və iri kənd təsərrüfatı müəssisələrinin inkişafına, emal sənayesinin az xərclə yüksək keyfiyyətli xammal ilə davamlı təminatına, ərzaq bolluğunun yaradılmasına diqqət yetirilir: "Dövlətin qayğısı sayəsində süd emalı zavodlarının fəaliyyəti genişləndi, yeni istehsal sahələri yaradıldı, əhali keyfiyyətli məhsullarla təmin edildi. Regionlarda və ölkə daxilində yeni iş yerlərinin yaradılması sayəsində insanların məşğulluğu, xüsusilə biznes və sahibkarlıq mühitinin formalaşması və inkişafı, eləcə də bu istiqamətdə həyata keçirilən digər tədbirlər bütövlükdə Azərbaycan iqtisadiyyatının fasiləsiz, dinamik və dayanıqlı böyüməsini təsdiqləyir.

Əlbəttə, Prezident İlham Əliyev respublikamızın bütün regionlarının hərtərəfli tərəqqisini xüsusi diqqət mərkəzində saxlayır və bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirir. Ölkə başçısı qarşıya qoyduğu vəzifələrin icrasına şəxsən nəzarət edir, regionların inkişaf konsepsiyasının həyata keçirilməsinin vəziyyəti haqqında hökumətin rüblük, yarımillik və illik xüsusi iclaslarını keçirir. Bu, bir daha təsdiq edir ki, regionların inkişafı dövlət siyasətinin prioritet istiqamətidir. Dövlət başçısı hər dəfə bölgələrə səfər edərkən iqtisadiyyatın müxtəlif sahələrinin dinamik və məhsuldar işləməsi üçün nəzərdə tutulmuş yeni müəssisələr açır, onların fəaliyyətini yoxlayır, rayonların sosial-iqtisadi vəziyyəti ilə yerindəcə tanış olur, müvafiq tapşırıqlar verir".

**Heç bir layihə təxirə salınmır...**

F.İbrahimovun sözlərinə görə, Prezidentin hər bir regionumuza səfərləri, görülən işlərlə tanış olması vətəndaşların rifah halının yaxşılaşdırılmasına yönəlib: "İkinci Qarabağ müharibəsində qələbə qazandıqdan sonra Azərbaycan dövləti işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işləri aparmasına baxmayaraq, digər regionlarımız da diqqət mərkəzində saxlanılır. Regionlarda böyük infrastruktur layihələri həyata keçirilir, yollar, sosial obyektlər tikilir. Heç bir layihə təxirə salınmır. Bütün bunlar bir daha onu göstərir ki, dövlət başçısının siyasətinin diqqət mərkəzində vətəndaşların layiqli həyat şəraitinin təmin edilməsi və onların rifah halının yaxşılaşdırılması dayanır".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə hazırlanmışdır**

# Sülh və təhlükəsizlik naminə...

## Hərbi təlimlər Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının təzahürüdür

Azərbaycan dost və tərəfdaş ölkələrlə davamlı olaraq birgə hərbi təlimlər keçirir. İki qardaş dövlət olan Azərbaycanla Türkiyənin hərbi qüvvələrinin birgə hərbi təlimləri isə ənənə halını alıb. Buna nümunə kimi iki ölkənin "Mustafa Kamal Atatürk", "Anadolu Qartalı", "Sarsılmaz Qardaşlıq" adlı birgə hərbi təlimlərini göstərmək olar. Eləcə də Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlılarının "Üç qardaş" hərbi təlimləri də xüsusi vurğulanmalıdır.

### "Qış təlimi-2025" birgə hərbi təlimi...

Qeyd edək ki, sözügedən əməkdaşlıq çərçivəsində növbəti hərbi təlim baş tutub. Belə ki, Türkiyənin Qars şəhərində "Qış təlimi-2025" birgə təlimində "Yüksək Səviyyəli Müşahidəçi Günü" keçirilib. Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, tədbirdə Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) komandanı, general-mayor Kənan Seyidov, Azərbaycan Ordusu Quru Qoşunların komandanının müavini, general-mayor İlqar Lətifov, Türkiyə Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı, ordu generalı Selçuk Bayraktaroğlu, eləcə də Azərbaycanın Türkiyədəki hərbi attaşelik aparatının və digər iştirakçı dövlətlərin hərbi nümayəndələri iştirak ediblər.

Əvvəlcə iştirakçılara təlimin gedişatı, qarşıda duran tapşırıqların məqsədi və yerinə yetirilməsi barədə statistik məlumatlar monitorda və ərazinin sxemi üzərində təqdim olunub, videobağlantı vasitəsilə bölmələrin fəaliyyəti haqqında zabitlərin məruzələri dinlənilib. Qonaqlar şərti əməliyyatların icrası zamanı hüquqi məlumatlandırma və medianın idarəolunması məntəqələrinə baxış keçirib.

Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra təlim poliqonunda "Qış təlimi-2025"ə cəlb edilən iştirakçılar tərəfindən müxtəlif epizodların praktiki icrası media nümayəndələri və qonaqlar tərəfindən izlənilib. Plana uyğun olaraq, əməliyyatlar zamanı bölmələrlə qarşılıqlı əlaqənin təmin edilməsi, döyüş vərdişlərinin yoxlanılması, atəşin idarə olunması, həmçinin axtarış-xilasetmə tədbirləri və döyüş təminatı üzrə fəaliyyətlər həyata keçirilib.

Təlimin ssenarisinə əsasən, artilleriya qurğuları, zirehli texnika, döyüş təyyarələri və helikopterlərdən qanunsuz silahlı birləşmələrin sığınacaqları, texnikası və canlı qüvvəsinin məhv edilməsi üzrə tapşırıqlar yerinə yetirilib. Həmçinin, çətin hava şəraitində təyyarələrdən endirilən taktiki hava desantı qrupları dağlıq ərazidə döyüş tətbiqi üzrə tapşırıqları icra ediblər. Təlimdə Azərbaycanı təmsil edən Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları yüksək peşəkarlıq nümayiş etdiriblər.





### Hərbi təlimlər birgə fəaliyyət üçün perspektivlər vəd edir

Ümumiyyətlə, hazırda dünyada artan münaqişələr, qlobal təhdidlər belə hərbi təlimlərin davamlı olaraq keçirilməsini zəruri edir. Məsələ ilə bağlı qəzetimizə açıqlamasında hərbi ekspert Emin Həsənli bildirib ki, mütəmadi olaraq hərbi təlimlərin keçirilməsi dövlətlərarası razılaşmalara əsasən reallaşdırılır. Azərbaycanın ən çox birgə hərbi təlim keçirdiyi ölkə isə dost və qardaş Türkiyədir. Onun sözlərinə görə, Azərbaycan dövlətinin bu istiqamətdə sərgilədiyi mövqe beynəlxalq hüquqa və dövlətlərarası imzalanmış sənədlərə əsaslanır: "Azərbaycan ilə Türkiyə bu gün əsl müttəfiqlik nümunəsi ortaya qoyur. Müttəfiqliyin ən mühüm istiqamətlərindən biri olan hərbi əməkdaşlıq iki qardaş ölkənin Silahlı Qüvvələrinin yeni situasiyada birgə fəaliyyəti üçün də perspektivlər vəd edir. Nəzərə alaq ki, "Şuşa Bəyannaməsi"ndə hər iki ölkənin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi milli maraqlara söykənən məsələlərdə ikitərəfli və çoxtərəfli formatlarda həmrəylik və qarşılıqlı yardım prinsiplərindən çıxış edilməsi xüsusi vurğulanır. O cümlədən, sənəddə Azərbaycanla Türkiyənin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin davam etdirilməsi bildirilir. Bütün bunlar isə yeni dönəmdə Azərbaycan-Türkiyə müttəfiqliyinin əsas komponentləri sırasındadır".

Hərbi ekspert qeyd edib ki, Azərbaycanla Türkiyə arasında birgə hərbi təlimlərin keçirilməsi hərbi əməkdaşlığın mühüm elementlərindən biridir. Bütün sahələrdə olduğu kimi, hərbi sahədə də hər iki dövlətin əməkdaşlığı yüksələn xətlə davam edir. Yəni bu istiqamətdə siyasi iradə ortadadır. Bunun nəticəsində Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birgə hərbi təlimləri ilbəil artırılır. Onun sözlərinə görə, Türkiyədə keçirilən budəfəki birgə təlim də bu baxımdan önəmlidir. Bu hərbi təlim heç bir ölkəyə qarşı yönəlməyib, sadəcə iki qardaş ölkənin əməkdaşlığı çərçivəsində həyata keçirilir.

### Regionda sabitlik üçün faydalı...

"Əslində, düşünürəm ki, bu hərbi təlimlər sülh və təhlükəsizlik naminədir, onun bütün region üçün faydası var. Çünki Azərbaycanla Türkiyə hər zaman bölgədə sülh və əməkdaşlıq təşəbbüsləri ilə çıxış edir. Məşhur bir deyim var ki, "təlimdə nə qədər tər töksən, döyüşdə bir o qədər az qan axıdarsan". Türkiyə ordusu NATO-nun ikinci güclü ordusudur. Azərbaycan Ordusunun belə bir güclü, müasir tələblərə cavab verən ordu ilə əməkdaşlığı, birgə təlimləri davam edəcək",- deyə E.Həsənli vurğulayıb.

*Nardar BAYRAMLI*

# Monastıra aparan orta yol

## Stendalın "Parma monastırı" romanı haqqında

Monastır təklik yurdu, kilsə cəmlik evidir. Monastır insanı insandan ayırır, kilsə insanları birləşdirir. Monastır poetik hücrə, kilsə mistik məkandır. Monastır dərdə dalmaqdan zövq alan bədbin şairlərin, taleyin cızdığı cığırdan sapan anarxist zahidlərin icadı, kilsə göyə toxunmaq üçün dağlara çıxan nikbin peyğəmbərlərin, yalan dünyada haqq-ədalət soraqlayan idealist dərvişlərin kəşfidir. Biri şiddətlə çağlayan həyatın sahilinə atılmaq, o biri dağıdıcı həyat selinin ortasında tərpənməz ada qurmaqdır. Biri təsadüfdən qaçış, o biri təsadüfləri zərurət sapına düzmək cəhdidir. Monastır tənha ruhun sükuta dalıb bədəndəki coşquları kiritdiyi, kilsə ruhların coşub bir-birinə axdığı yerdir.

Stendal monastır, Hüqo kilsə kahinidir; başqa sözlə, biri rahib, o biri keşiş ruhludur. Stendal üçün qəlbin istinad elədiyi, sığındığı son instansiya monastır, Hüqo üçün kilsədir. Bulqakovun təbirincə desək, biri mənəviyyat sarayının "dinclik", o biri "işıq" qatının sakinidir. Birinin ruhu Parma monastırındakı qaranlıq, sakit hücrəsində, o birinin qəlbi Paris Notr-Dam kilsəsinin aləmə ün salan zəng qülləsində əbədi məskunlaşıb.

Viktor Hüqonun "Səfillər" romanından danışanda da buna bənzər etik-fəlsəfi məsələyə toxunmuşduq. Mövzumuza birbaşa aid olduğuna görə həmin məqamı xatırlatmaq istərdim: "Hüqo monastır həyat tərzinin, rahib əxlaqının tərəfdarı deyildi, çünki monastırda bərabərlik, ruhani dinclik olsa da, azadlıq yoxdur, eşq yoxdur. Monastır başqa, kilsə başqa. Kant deyirdi ki, inanclı xristianların bir yerə toplaşdığı istənilən məkan kilsədir. Monastır tənhalıq, kilsə vəhdət məkanıdır. Monastır daha çox buddizm əxlaqına, buddist düşüncəsinə uyğun bir yerdir. Budda deyir ki, hər bir fərd ayrıca ada, ayrıca bir ulduzdur. Məsih isə insanları birliyə, qardaşlığa səsləyir. Stendalın "Parma monastırı" romanının qəhrəmanı ehtiraslar, intriqalar, savaşlarla dolu cəhənnəmdən sağ qurtarandan sonra monastıra pənah aparır. Hüqonun "Paris Notr-Dam kilsəsi" romanının qəhrəmanları isə kilsəni eşq məbədinə, dinin, dövlətin şərindən qaçanların sığınacaq yerinə çevirirlər".

***

"Parma monastırı" romanını haqqında əvvəllər bəhs elədiyimiz "Qırmızı və qara" əsərinə doğmalaşdıran təkcə bu kitabların bir müəllifin qələmindən çıxması deyil: hər iki romanın qəhrəmanı xoşbəxtlik, karyera axtarışındadır, sələfi Jülyen Sorel (həm də xələfi Raskolnikov) kimi Fabrisio del Donqo da Napoleon vurğunu, böyük qəsbkarın pərəstişkarıdır. Fabrisio da Jülyen kimi hərbi sahədə karyera qurmaq istərkən ruhani seminariyasında oxumağa məcbur qalır - hərçənd hərbi yürüşlər, parlaq zəfərlər dövründə yaşamaq qismətinə düşməyən kəndli balası Jülyendən fərqli olaraq zadəgan oğlu Fabrisio milyonlarla avropalı gəncin kumiri Bonapartın son döyüşünə özünü çatdıra bilir. Hər iki qəhrəmanın ömrü həyatın iki qütbü - işıqlı saraylarla qaranlıq məbəd, öz təbirincə desək, qırmızıyla qara arasında keçir. Stendal filosof yazıçıdır, hər iki dünya şöhrətli romanında ortaya qoyduğu vahid fəlsəfi konsepsiyası var. Avropa ədəbiyyatının sonrakı gedişatına böyük təsir göstərmiş, istiqamət vermiş bu konsepsiyanı çözməyə çalışaq.

Əslində, "Qırmızı və qara" romanından danışanda buna cəhd göstərmişdik. Ancaq yaradıcı ömrünün qürubunda "Parma monastırı"nı yazmağa da ehtiyac duyubsa, demək, əvvəlki romanlarında (bu iki romanın arasında "Lüsyen Leven" adlı biri də var) müəllif özünü hələ tamam-kamal ifadə eləməyib. Daha burasını demirəm ki, çoxları "Qırmızı və qara"nı Stendalın şah əsəri saysa da, birincilik çələngini "Parma monastırı"na verən ədəbiyyat bilicisi də az deyil. Dövrünün ölçüləriylə yanaşsaq, özündən sonrakı ədəbi nəsillərə mənsub Qonçarov, Flober kimi Stendal da bir o qədər məhsuldar romançı sayılmamalıdır.

Təxminən beş yüz səhifəlik son romanını yazıçı 1838-ci ilin axır həftələrində vur-tut əlli iki günə yazıb. Növbəti il əsər dərc olunub. Aydındır ki, buna qədər müəllif romanın süjetini illərlə beynində gəzdirib, yoxsa bu cür mürəkkəb, hadisələrlə zəngin bir dastanı belə qısa müddətdə düzüb-qoşmaq çətin başa gələrdi. Bu romanda yazıçı sevimli, yaraşıqlı qəhrəmanını öz keçmişinin trayektoriyası üzrə, gəncliyinin bir sıra marşrutları boyunca gəzdirib, ona vurğunu olduğu gözəl İtaliyanın adı bəlli şəhərləri arasında at çapdırıb. Məlumdur ki, 1783-cü ildə dünyaya gəlmiş Stendal təxəllüslü Mari-Anri Beyl Napoleon ordusunun bir sıra yürüşlərinin iştirakçısı olmuşdu, zabit kimi Almaniya, Avstriya, İtaliya topraqlarını ayaqdan keçirmişdi, xüsusi savaş təcrübəsi olmasa da, 1812-ci ildə Borodino döyüşünə şahidlik eləmişdi, yandırılan Moskvanın ərşə dirənən alovlarını gözləriylə görmüşdü, nəhəng ordu Rusiya şaxtasına məğlub olanda ölümdən güclə qurtarmışdı.

Ancaq gənc, xəyalpərəst qəhrəmanını göndərdiyi Vaterloo döyüşünü müəllif görməmişdi, bununla belə, əvvəlki təcrübəsi bu döyüşün təsvirində onun karına gəlmişdi. Tolstoyun etirafına görə, "Parma monastırı"ndakı müharibə səhnəsi "Hərb və sülh"dəki döyüş təsvirlərinin uğurlu alınmasına güclü təsir göstərmişdi, Lev Nikolayeviç sələfinin yaratdığı Vaterloo səhnəsini sənətkarlıq baxımından yüksək dəyərləndirmişdi. Ümumiyyətlə, Stendal bir yazıçı kimi öz halal qiymətini çox gec - ölümündən hardasa əlli il sonra almışdı. Ona vaxtında dəyər verən yenə Balzak, Hüqo kimi böyük çağdaşları, Tolstoy kimi dahi xələfləri olmuşdu. Bəli, bir böyük yazıçını başqa böyük yazıçıdan yaxşı heç kim anlaya bilməz - Stendalın taleyi qələm yoldaşlarına, sənət, peşə ortaqlarına hər fürsətdə nifrət saçan, balta çalan, ölüsünə də, dirisinə də şər yaxan, böhtan çağıran qafillərə ibrət dərsi olmalıdır.

***

Markiz del Donqonun kiçik oğlu Fabrisionun uşaqlığı gözəl, mənzərəli təbiət qoynunda - Komo gölünün yaxasında hələ on beşinci əsrdə inşa olunmuş dədə-baba mülkü Qriant qəsrində keçib. Onun böyük qardaşı xasiyyətcə atasına bənzəyir. Markiz varlı olsa da, çox xəsisdir, arvadını, qızlarını ehtiyac içində yaşadır. Gözəlliyinə görə İtaliyada ad çıxarmış bacısı Cina qardaşının narazılığına baxmayaraq Napoleon yürüşlərinin iştirakçısı olan Pyetranera soyadlı igid, fəqət yoxsullaşmış bir qrafa ərə gedib. Qraf dueldə öldürüləndən sonra Cina ata mülkünə - Qriant qəsrinə köçür.

On yeddi yaşlı gözəl, yaraşıqlı, ucaboy Fabrisio bibisinin gözü qabağında böyüyüb. Bu gənc uşaqlığından Napoleon heyranıdır, indi imperatorun Elba adasından qaçıb özünə yenidən qoşun topladığını eşidəndə atasından gizlicə, başqa ad altında Fransaya yollanıb öz bütünün çağırışına tələsir.

Fransızlar görkəmindən, ləhcəsindən şübhələnib onu həbsə atırlar. Vaterloo döyüşü ərəfəsində Fabrisio bir qadının yardımıyla zindandan qaçıb savaşın episentrinə düşür, ancaq qarışıqlıq içində imperatoru tanıya bilmir. Onu başa salırlar ki, döyüş uduzulub, evə qayıtmağı məsləhətdir.

Cenevrədə Fabrisionu Cinanın nökəri qarşılayır, məlum olur ki, böyük qardaşı onu ələ verib, indi polis sui-qəsddə iştirakına görə imperatorun gənc pərəstişkarını ciddi-cəhdlə axtarır. İşin tərsliyi burasındadır ki, hər cür romantikadan uzaq savaş səhnəsini görəndən sonra kumiri də, onun dünya tarixinin yeni səhifələri kimi öyülən parlaq hərbi qələbələri də pərəstişkarın gözündən düşüb. İndən belə ondan ötrü əzab çəkməyə, ölümə getməyə dəyməz.

Anasıyla bibisi Fabrisionu Milana qaçırıb gəncin izini itirməyə çalışırlar, ancaq artıq iş işdən keçib, onun cinayət dosyesi imperiya mərkəzi Vyanaya göndərilib, ələ düşsə, Fabrisionu Avropanın ən dəhşətli türməsində həbs, işgəncə gözləyir. Odur ki, onun özünü könüllü sürgünə məhkum eləməkdən başqa çarəsi qalmır.

***

Cina Milanda Parma cırtdan dövlətinin naziri qraf Moska ilə tanış olur. Əlli yaşını haqlamış Moska Cinaya dəlicəsinə vurulur, qadının da ona marağı yaranır. Qraf subay deyil, ancaq sevgilisinə qovuşmaq üçün vəzifəsindən istefa verib Cinanın istədiyi yerdə onunla birgə yaşamağa hazırdır. Bu baş tutmazsa, başqa plan da var: qoca hersoq Sanseverina Moskanın təşkil eləyə biləcəyi orden müqabilində Cina ilə saxta nikah bağlamağa razıdır, bu nikah qadına Parmada yaşayıb saraya yaxın olmaq imkanı verəcək. Beləcə, hersoginya Sanseverina tez bir zamanda Parma elitasında böyük şöhrət, rəğbət qazanır, təmtəraqlı evində kübar məclisləri qurur.

Parma sarayında iki partiyanın amansız mübarizəsi gedir - hakim royalistlərə qraf Moska, müxalif liberallara varlı, məkrli markiza Raversi başçılıq eləyir. Prins IV Ernest məhdudiyyətsiz hakimiyyətə yiyələnəndən sonra daim qorxu, şübhə, xof içindədir, məhkəmə hökmlərinin icrasına nəzarət funksiyasını yerinə yetirən məmur Rassinin təhrikiylə iki liberalın edamına fərman verəndən bəri isə qorxudan havalanmaq dərəcəsinə çatıb. Qraf Moska prinsi düşdüyü gülünc vəziyyətlərdən daim çıxardığına görə sarayda mövqeyi möhkəmdir. Rassi isə sui-qəsd tamaşaları qurmaqla səksəkəli şahzadəni təsiri altında saxlayır. Monarxa xain çıxanları nəhəng Parma qalasına damlayırlar, bu, elə bir qaladır ki, ora quş da səkə bilməz, oradan salamat dönüş yoxdur.

Yeni həyatı hersoginyanın ürəyincə olsa da, Fabrisionun taleyi ona rahatlıq vermir. Qraf deyir ki, Napoleon qoşununda savaşdığına görə gəncin hərbi karyera qurmağı artıq mümkün deyil, ancaq ruhani təhsili almağa razılaşsa, Moska onun gələcəkdə Parma arxiyepiskopu vəzifəsini tutmağına kömək göstərə bilər. Bibisi Fabrisionu Neapol ruhani akademiyasında oxumağa al dillə razı salır.

Orada Fabrisio heç də rahib həyatı sürmür, gözəlliyinə, yaraşığına görə qadınlar arasında ad çıxarır, fəqət onların heç birinə könül vermir. Üç ildən sonra ruhani rütbəsi alıb Parmaya qayıdır. Bu dəfə hiss eləyir ki, Cinanın ona məhəbbəti nəsə doğmalıq münasibətindən kənara çıxır.

davamı növbəti sayımızda



*F.Uğurlu*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Şənbə üçün Nəzm



## Darısallıq

Uzun illər sıxdı məni:
gah çəkmələrim -
bəzən uzunu, bəzən eni ilə,
Gah ötüb keçən ilə təəssüfüm.
Gah ümidim, yeni ilə.
Gah dünyanın dərdi, qəmi sıxdı məni,
gah corablarımın boğazı,
Gah alçaq buludların qalın pərdəsi;
Gah bir nadan qələmindən
tökülən yazı.
Gah avtomat qələmin bahalığı.
Gah sözün ucuzluğu.
Gah köynəyimin yaxalığı.
Qırıb çıxmaq istədim
“olar”, olmaz” çərçivəsindən.
Dedilər yox, yox!
Dəblərə, qaydalara gir!
Vərdişləri, adətləri gözlə!
Sığallı dillə yaz!
Sıxdılar məni,
maddələrlə, sözlərlə...
İş otağım
on iki metr yarım.
Altısında
mən,
yazı masam,
həsrətim, ümidim.
Sabir.
Heminquey.
Tavandan süzülən damcıların izi.
Bricid Bordonun
bığsız, pişik üzü.
Falk, Mikayıl,
Tağı,
Bəhlulun nəvəsi.
İlk sırada olmaq
və qalmaq həvəsi.
Altı metr belə.
Altı yarım:
kitablar, kitablar, kitablarım.
Pəncərələr sıxdı məni
uzunsov dördbucaqda göstərib
küçənin evlərlə sərhədlənmiş yarğanını.
Maşınlar sıxdı məni
markalarına münasib.
Sıxdı məni vaqonların
güzgülü kupeləri və
yol hesabatını yoxlayan mühasib.
Məsafələr metrlərlə,
işıq kilovatlarla doldurulub.
Nəğmələr oktava içində
Xəstələrin hərarəti
dərəcələr içində.
İri meyvələr dənələrə,
üzüm-göz yaşı gilələrə dolub.
Şəhərimin yaşıllığı
ölçülüb, biçilib
salınıb rəqəmlərə.
Dağlar darıxıb göyə qalxıb
dərələr çöküb yerə.
Darıxır insan
hüdudlar, ölçülər içində.
Yayda uzun gündüzlər,
qışda uzun gecələr içində.
Deyirəm:
öləndə, atın
ən dərin dəryaya məni;
qaldırıb buludlardan yuxarı!
Son yolum uzun,
son mənzilim geniş olsun barı



Yox, yox.
Ən dərin dəryalar da
sahillərin çənbəri içindədir.
Görünür,
darısqallıq kənarda deyil;
hər meyvənin tumunda,
hər canlının hüceyrəsində,
hər binanın daşında, kərpicindədir.
Görünür,
yolumuz budur.
Zərurəti dərk etməyincə
gedirik, gedəcəyik
Darısqallıqdan keçə-keçə...

***

## SARI DANA VƏ BALACA QIZ

Səs düşdü Göytəpə kəndinə:
“Sarı dana xəstələnib!”
- Necə, sarı dana?
Sazaqlı külək kimi
xəbər yayıldı hər yana.
Sədr gəldi,
partkom gəldi,
baytar, bir də briqadir.
Hər gələn soruşdu:
-Azarı nədir?
Baytar qulağını qoydu
dananın sinəsinə.
Hamı dondu qaldı.
Baytar tövşüdü, tərlədi.
Dana öz bildiyi kimi nəfəs aldı.
Baytar qaşlarını çatdı.
Hamı qəm dəryasına batdı.
Baytar dedi:
-Süddədir illəti.
Sağıcı Gülxaranın
gözlərinə çökdü dünyanın zülməti.
Baytar dedi: tez olun!
Tənzif, pambıq verin! Qarnını bağlayaq,
İsti su gətirin ayaqlarına!
Damcı dərman da lazımdır
qulaqlarına.
Nüsxə yazdı bir qarış.
Maşın ürkək keçi kimi sıçradı:
sədrin buyruğu ağzından çıxmamış.
Handan-hana
qoca mühasib gəldi.
Baxdı, ah çəkdi
Dedi: yazığın gəlsin bizə,
sarı dana.
Amandır bu zülmü eləmə
illik plana!
Üç gün, üç gecə
Gülxara ayrılmadı
sarı danadan.
Dana sakit yatanda dedi:
ağrın alım.
Dana qurcuxanda dedi:
Can!
Hər üç saatdan bir
verdi su dərmandan,
hər altı saatdan
toz dərmandan.
Nə evinə gedə bildi.
Nə urvalıq apara bildi
uşaqlara dəyirmandan.
Tənzifə qızmadı ürəyi,
dananın qarnına bağladı
gəlinlik şalını.
Sədr hər axşam, hər səhər,
şəxsən,
soruşdu dananın əhvalını.
Partkom gündə bir dəfə
xəbər aldı:
-Necədir sarı dana?
Əhvalat uzundur, nə deyim.
Bəsdir bunu desəm
dana ölmədi azardan.
Ancaq Gülxaranın
qaragöz kiçik qızı...
Beşcə qulac bez aldılar bazardan.

***

Quyruğunu qoyub belinə
qaçır, tullanır
sarı dana indi,
Ancaq, soruşan yoxdur,
yaşıl otlar içindəki
o balaca qəbir kimindir!

***

Əlim qopdu əlindən,
Mən dedim: - Üşüyərsən!
Sən dedin:
-Əynim-başım istidir.

Mən dedim:
-Olsun...
Cəhənnəmdə də üşüyər adam;
yalqız olsa.



Sən getmişdin.
Sözlərimi eşitmədin.
Səni sözüm üşütmədi.
Sakit budaqlarda
sakitdi yarpaqlar.

Mən qışqırdım, ey!
Həsrətini gəl, apar!
Sən eşitmədin.
Səni səsim üşütmədi.



Ayrıldıq.
Evə gəldim.
Yaşıl civəyə baxdım.
Hərarət iyirmi üçdü.
Sözün yadıma düşdü:
Əynim-başım istidir.
Mən
Üşüyürəm istidən.
Bəs sən necə, sən?!

***

Nə “Koroğlu” vardı,
Nə “Arşın mal alan”,
ahəngə düzülmüş
quşların nəğməsi,
bulaqların səsi vardı.
Bir qara gözlü uşaq,
söykənib qaya daşına,
dinləyirdi tütək səsini
və ara-sıra gələn
qırıq kəlmələri tək-tək:
“Kərə, tayın gördüm,
Kürə, tayın görmək gərək”.
Bir “Kəsmə şikəstə”
“Yandım” - deyib,
enirdi yamaclara
Üzeyir adlı
Bir qara gözlü uşaq
heyran-heyran baxırdı
quş nəğməli ağaclara
Beşik başından
axırdı ana laylaları
axşam-səhər,
Bir qara gözlü uşaq
dinləyirdi, dodağında
körpə zümzümələr.
Hələ nə “Koroğlu” vardı,
nə “Arşın mal alan”.
Bir qara gözlü uşaq vardı.
Bir könlü nəğməli insan
Bir gün gəldi
“Arşın mal alan”da var oldu,
“Koroğlu”da, “Sənsiz”də
Bir də acı bir duyğu,
yanıqlı bir həsrət
qəlbimizdə.


## İtmişdir

Hacıyeva Badam Səməd qızına Xətai rayonu 17 saylı tam orta məktəb tərəfindən verlimiş 9 illik attestat itdiyi üçün etibarsız sayılır

## İtmişdir

Quliyeva Badam Səməd qızına Nərimanov rayon Natiq Tağıyev adına 212 saylı tam orta məktəbin nəzdində fəaliyyət göstərən “Gecə Korlar Məktəbi” tərəfindən verilmiş 11 illik attestat itdiyi üçün etibarsız sayılır


*İdman*

## Serxio Ramos Meksika klubuna keçib



İspaniya millisinin və “Real Madrid”in sabiq futbolçusu Serxio Ramos karyerasını Meksikada davam etdirəcək. AZƏRTAC xəbər verir ki, 39 yaşlı müdafiəçi “Monterrey” komandasına keçib. Təcrübəli oyunçu ilə 1 illik müqavilə imzalanıb. O, yeni komandasında 94 nömrəli formanı geyinəcək. Ramosun bir illik məvacibi 4 milyon avro təşkil edəcək. Qeyd edək ki, Serxio Ramosun son klubu İspaniya “Sevilya”sı olub.

## Beynəlxalq yarışda bürünc medal...




Azərbaycanı beynəlxalq fiqurlu konkisürmə üzrə yarışlarda təmsil edən Anna Sofia Obrien İtaliyada keçirilən “Egna Dance Trophy” adlı yarışda iştirak edib.

Qış İdman Növləri Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, ritm və sərbəst proqram üzrə çıxış edən idmançı 129.35 xalla 3-cü yeri tutub.

Qeyd edək ki, yarışda 15 ölkədən ümumilikdə 18 idmançı mübarizə aparıb.

## Azərbaycan Kubokunda son 20 mövsümün antirekordu qeydə alınıb



Futbol üzrə Azərbaycan Kubokunda 1/4 finalın ilk oyunlarında cəmi 4 qol vurulub. Peşəkar Futbol Liqasından AZƏRTAC-a verilən məlumata görə, “Kəpəz” - “Neftçi” (0:2) görüşündə iki, “Araz-Naxçıvan” - “Zirə” (1:0) və “Səbail” - “Qarabağ” (0:1) qarşılaşmalarında bir qol qeydə alınıb. “Sabah” - “Sumqayıt” (0:0) matçı qolsuz bitib.

Bu, son 20 mövsümün antirekordudur. 2004/2005-ci illər mövsümündə də 1/4 finalın ilk oyunlarında eyni sayda qol qeydə alınıb. Neftçi” - “İnter” və “Gənclərbirliyi” - “MKT-Araz” matçları qolsuz yekunlaşıb. MOİK “Xəzər Lənkəran”a 0:1, “Karat” “Bakı”ya 1:2 hesabı ilə məğlub olub. Bu nəticə 20 ildən sonra təkrarlanıb.

2004/2005 və 2024/2025-ci illər mövsümlərindəki göstərici 1/4 finalın bütün görüşləri baş tutan ilk oyunlar üçün antirekord sayılır. Çünki daha az - 2 qolun vurulduğu 1997/1998-ci illər mövsümünün 1/4 finalının ilk oyunlarından 3-ü keçirilib

Hər iki top da OİK - “Neftçi” matçında vurulub - 1:1. “Kəpəz” - “Bakılı”, “Dinamo” - “Qarabağ” görüşləri qolsuz yekunlaşıb. Bərdə “Pambıqçı”sı fəaliyyətini dayandırdığı üçün “Kür-Nur”la qarşılaşması texniki nəticəyə səbəb olub.

## Azərbaycan çempionu: Öz çıxışımdan tam razı qalmadım



“Qalib olduğum üçün şadam”. AZƏRTAC xəbər verir ki, bu sözləri kamandan oxatma üzrə Azərbaycan millisinin üzvü Yaylagül Ramazanova ölkə birinciliyi və çempionatı barədə danışarkən deyib.

Böyüklər arasında qızıl medala sahib çıxan idmançı nəticəsindən tam razı qalmadığını bildirib: “Birinciliyi daha yaxşı nəticə ilə əldə edəcəyimi düşünürdüm. Yeni ana olduğum üçün az məşq etmişdim. Çempionatda istedadlı gənclər iştirak edir. Finalda rəqibimlə başabaş mübarizə getdi. Lakin sonda qələbəni əldə etdiyim üçün sevinirəm”.

Qeyd edək ki, iki gün davam edən turnirdə Azərbaycanın müxtəlif bölgələrini təmsil edən 60-a yaxın idmançı mübarizə aparıb.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4446**
**Sifariş: 266**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova